25 yanvar 2023 №6 (1975)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Mədəniyyətə bağlı ömür”

### Mədəniyyət Nazirliyinin “Heydər Əliyev İli” ilə bağlı layihəsi



Mədəniyyət Nazirliyi 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı “Mədəniyyətə bağlı ömür” adlı layihəyə başlayır.

Müxtəlif rubrikalardan ibarət layihə nazirliyin rəsmi saytında və sosial media hesablarında yerləşdiriləcək.

Layihə çərçivəsində Heydər Əliyevin müxtəlif illərdə iştirak etdiyi mədəni tədbirlərdən fotoşəkillər, Ulu öndərin mədəniyyət və incəsənətlə bağlı fikirləri təqdim olunacaq.

# Ermənistan otuzillik işğal zamanı törətdiyi əməllərə görə cavab verməlidir

### Azərbaycanın Beynəlxalq Ədalət Məhkəməsinə təqdim etdiyi iddia sənədində mədəni irsimizə vurulan zərərdən də bəhs olunur

Azərbaycan Hökuməti Ermənistanın otuzillik işğal zamanı törətdiyi əməllərlə bağlı əsas iddia sənədini yanvarın 23-də Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edib. Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, bu, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya uyğun olaraq, ölkəmizin Ermənistana qarşı qaldırdığı beynəlxalq məhkəmə proseslərində mühüm inkişafdır. Məhkəməyə təqdim edilmiş əsas iddia sənədi otuzillik ədalətsizliyi qeydə alan minlərlə səhifəlik dəlillərə əsaslanır. Sənəd Ermənistan tərəfindən ən dəhşətli aktlardan biri olan etnik və milli mənsubiyyətə görə təmizləmə nəticəsində qətlə yetirilmiş, didərgin salınmış və zərər çəkmiş azərbaycanlılar haqqında ətraflı məlumatları ehtiva edir.

Ermənistanın qəsbkarlığı və Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin qeyri-qanuni işğalı düşünülmüş və məqsədyönlü etnik təmizləmə siyasəti ilə müşayiət olunub. 2020-ci ilə qədər davam edən bu fəaliyyət Azərbaycan rayonlarının dağıdılması, talan edilməsi və istismarı yolu ilə ölkəmizin ərazisində erməni yaşayış məskəni yaratmaq məqsədi daşıyıb.

Azərbaycan 2020-ci ildə torpaqlarını azad etdikdən sonra sözügedən ərazilərdə dəlillərin genişmiqyaslı toplanması işini həyata keçirib. Ermənistanın yüz minlərlə insanın həyatını, saysız-hesabsız ailələri və icmaları, əvəzolunmaz mədəni irsi və ətraf mühiti məhv etməsinin miqyası, həqiqətən də, dəhşətlidir.



Ermənistanın etnik ayrı-seçkilik siyasəti və əməlləri, o cümlədən otuz ilə yaxın müddətdə ərazilərimizin qeyri-qanuni işğalı həmvətənlərimizin Azərbaycanın Qarabağ bölgəsindəki evlərinə qayıtmasına mane olub. Bu günədək yüz minlərlə azərbaycanlı məcburi köçkün hələ də öz keçmiş evlərinə qayıda bilmir.

davamı səh. 2-də

## Qarabağdakı ermənilərin hüquqları Azərbaycanın qanunları ilə təmin olunacaq

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikri yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinkenlə telefon söhbəti zamanı vurğulayıb.

Prezident ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edib. Bildirib ki, Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında yalnız ikitərəfli münasibətlərin normallaşdırılması özündə ehtiva etməlidir.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib.

səh. 2

## Mədəniyyət sahəsi ilə bağlı bir sıra qanunlara dəyişikliklər ediləcək

### İki yeni qanun layihəsi üzərində isə iş davam edəcək

Yanvarın 24-də Milli Məclisin Mədəniyyət komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib. İclası açan komitənin sədri Qənirə Paşayeva qarşıdakı sessiyada deputatlara uğurlar diləyərək gündəlik barədə məlumat verib.

Mədəniyyət komitəsinin 2022-ci ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatını təqdim edən Qənirə Paşayeva diqqətə çatdırıb ki, ötən müddətdə komitənin 6 iclası keçirilib, 6 məsələyə baxılıb. Komitə sədri həmçinin məlumat verib ki, payız sessiyası ərzində komitənin ünvanına daxil olmuş 681 müraciətə baxılıb və müvafiq tədbirlər görülüb.

Mədəniyyət komitəsinin 2023-cü ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi ilə bağlı komitə sədri bildirib ki, sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanunvericilik aktlarına, digər sənədlərə baxılması və rəy verilməsi, habelə “Qeyri-maddi mədəni irsin qorunması haqqında” qanun layihəsinin müzakirəsi nəzərdə tutulub. Eyni zamanda, “Kinematoqrafiya haqqında” yeni qanun layihəsinin hazırlanması işi davam etdiriləcək.

Bundan əlavə, “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında”, “Azərbaycanın mədəniyyət paytaxtı – Şuşa şəhəri haqqında”, “Məlumat azadlığı haqqında”, “Nəşriyyat işi haqqında”, “Teatr və teatr fəaliyyəti haqqında”, “Mədəniyyət haqqında”, “Milli arxiv fondu haqqında” və digər qanunlarda müəyyən dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Müzakirələrdə komitənin üzvü olan deputatlar qarşıdakı sessiyada iş planı və Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı təkliflərini səsləndiriblər.

## Rusiyanın Xalq artistinin Bakıda ustad dərsləri

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası Nəfəs və zərb alətləri kafedrasının müdiri Rusiyanın Xalq artisti, beynəlxalq müsabiqələr laureatı İrina Bısova yanvarın 23-də Bakıda, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində fagot ixtisası üzrə ustad dərsləri keçib.

İ.Bısova yanvarın 26-da isə fleyta ixtisası üzrə ustad dərsləri keçəcək.

səh. 3

## Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə

2023-cü ildə Türkiyə Cümhuriyyətinin qurulmasının 100 ili tamam olur. Bu əlamətdar yubiley təkcə qardaş Türkiyə üçün deyil, bütün Türk dünyası üçün qürur mənbəyi olan bir tarixdir.

Yubiley münasibətilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən İstanbulda “Yıldız sarayı fotokolleksiyasında XIX əsr Türk dünyasının mədəni irsi” adlı sərgi təşkil olunub.



Fonddan bildirilib ki, sərgidə Osmanlı Sultanı II Əbdülhəmid dönəmində çəkilən və Türk dünyasının mədəni irsini ehtiva edən Yıldız sarayı kolleksiyasından 75 fotoşəkil nümayiş olunub. Yıldız kolleksiyası dünyanın ən zəngin fotoarxivlərindən biridir və ümumilikdə 918 albomdan – 36 min 585 fotoşəkildən ibarətdir.

Türk dünyasının Səmərqənddən Ədirnəyədək uzanan coğrafiyalardakı çoxəsrlik memarlıq nümunələrini əks etdirən fotoşəkillərin arasında UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş Səmərqənd, Buxara, Kokand, Xivə şəhərlərinə (Özbəkistan) aid maddi mədəni abidələr, Bakıdakı Şirvanşahlar Sarayı, Türküstandakı (Qazaxıstan) Xoca Əhməd Yəsəvi türbəsi, Anadoluda inşa olunmuş ilk məscid – Qars Əbu Mənuçöhr camisi, İstanbul və Konya (Türkiyə), Aşqabad (Türkmənistan) və digər şəhərlərə məxsus abidələr yer alıb.

davamı səh. 2-də

## Şuşanın 2026-cı ildə İƏT “Turizm paytaxtı”na namizədliyi irəli sürüləcək

Şuşa şəhərinin 2026-cı il üçün İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) “Turizm paytaxtı”na namizədliyi irəli sürüləcək.




Bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İƏT Nazirlər Şurasının Daşkənddə (Özbəkistan) keçirilən 26-cı iclasında çıxışı zamanı bildirib. Şuşanın namizədliyi bu il ölkəmizin təşkilata sədrliyi çərçivəsində təqdim olunacaq.

Qeyd edək ki, yanvarın 24-də İƏT-ə sədrlik Özbəkistandan Azərbaycana keçib.

mövzuya dair ətraflı səh. 2-də


ПРОГРАММА
ОПЕРА
ЛЕЙЛИ и МЕДЖНУНЪ

## 115 yaşlı “Leyli və Məcnun”

“Leyli və Məcnun” operasının səhnələşdirilməsindən 115 il ötsə də, o bu gün də ali hisslərin təcəssümünün ən gözəl nümunəsidir. Çünki saf məhəbbət – ülvi hisslərin təzahürü kimi daima əsrlərin hakimidir. Buna görə də qürurla deyə bilərik: yaşasın Üzeyir Hacıbəylinin ölməz sevgi əfsanəsi”. 115 yaşlı “Leyli və Məcnun”, sənət şöhrətin əbədi olsun!..

səh. 6

## Nemanzadənin nəticəsi: “Babamdan qalan irs Azərbaycanın mənəvi sərvətidir”

Ömər Faiq Nemanzadənin yubileyi ilə əlaqədar Britaniyadan Vətənə gələn görkəmli ziyalının nəticəsi Ülviyyə Pepinova redaksiyamızın qonağı oldu.

– Mən ulu babamın yazdığı bütün fikirlərlə razıyam, tək birindən başqa. Babam yazırdı ki, dilini sevməyən insan millətini sevməz. Amma, baba, mən bu mövzuda səninlə razı deyiləm. Çünki biz rus və ingilis dillərində danışsaq da, millətimizi həmişə sevmişik. Sənin nəvə-nəticələrin olaraq bunu sübut etmişik...

Ədəbiyyat Muzeyində babamın şəxsi əşyaları qorunur. Bu əşyaları 1970-ci ildə nənəm muzeyə hədiyyə edib.

Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən çap olunan fotoalbomda babamın indiyə qədər məlum olmayan fotoları da yer alıb.

səh. 5

## Sofiyada beynəlxalq festivalda Azərbaycan kinosu gecəsi




səh. 8

## Ermənilər Kəlbəcərdə alban irsini necə saxtalaşdırıb?

Albanşünas tarixçinin qeydləri

səh. 4



## Almas İldırımın yubileyinə həsr olunan kitabın təqdimatı

səh. 8

# Ermənistan otuzillik işğal zamanı törətdiyi əməllərə görə cavab verməlidir

əvvəli səh. 1-də



Beynəlxalq Ədalət Məhkəməsinə təqdim edilən iddia sənədində o da diqqətə çatdırılır ki, işğal dövründə və 2020-ci ildə müharibədən sonra ərazilərdən geri çəkilərkən "yandırılmış torpaq" siyasətinin tərkib hissəsi kimi Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı, Zəngilan və Kəlbəcər kimi şəhərlər Ermənistan tərəfindən tamamilə dağıdılıb. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 1991-ci ildə işğalından sonra Azərbaycanın Qarabağ bölgəsində yerləşən tikililərin 95 faizi yerlə yeksan edilib.

Bu ayrı-seçkilik siyasətinə Ermənistanın mülki evləri və yaşayış məntəqələrini partlayıcı vasitələr və minalarla hədəfə alması da daxildir. 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra mina partlayışlarında 282 azərbaycanlı həlak olub və ya ağır yaralanıb. Minalar Ermənistanın azərbaycanlı məcburi köçkünlərin geri qayıtmasına mane olmaq kampaniyasının mühüm elementi və ağır mirasıdır.

Azərbaycan tərəfi təqdim edilmiş müfəssəl sübutlar əsasında, azərbaycanlıların hüquqlarının geniş şəkildə pozulmasına görə Ermənistanın məsuliyyət daşıdığına dair vəsatətin təmin olunmasını məhkəmədən tələb edib. Xüsusilə, etnik təmizləmə, o cümlədən qəsdən həyatdan və mülkiyyət hüququndan məhrumetmə, işgəncə, mədəni irsin məhvi, erməni əhalisi arasında azərbaycanlılara qarşı nifrətin təbliği və Ermənistanda nifrət zəminində yaradılmış silahlı qruplara dövlət yardımı ilə bağlı Ermənistan hökumətinin məsuliyyət daşıdığının bəyan edilməsi üçün müraciət ünvanlanıb.

Azərbaycan tərəfinin müraciətində həmçinin Ermənistanın itkin düşmüş azərbaycanlılara dair bütün məlumatları açıqlamağa bağlı öhdəliklərini yerinə yetirməsinin, qanunsuz ələ keçirilmiş bütün əmlak və torpaqları azərbaycanlılara geri qaytarmasının, nifrət zəminində təbliğatı dayandırmasının və insan hüquqlarının otuz il ərzində pozulmasına görə məsuliyyətə cəlb olunmasının vacib olduğu vurğulanıb.

Azərbaycan tərəfi sözügedən cinayətləri törədənlərin beynəlxalq hüquqi məsuliyyətə cəlb olunması istiqamətində bütün zəruri tədbirləri davam etdirəcək.

# Frankfurtun yəhudi icmasının ravvini ölkəmizi nümunə göstərib

Azərbaycan dünyada yəhudilərin repressiyaya uğramadığı yeganə ölkədir. Yəhudilər uzun əsrlərdir əhalisinin əksəriyyəti müsəlman olan bu ölkədə mehriban ailə kimi yaşayırlar. Bu yaxınlarda Azərbaycanın İsraildə səfirliyi açıldı. Bu, bir çox ölkələrə ən yaxşı nümunə olacaq.



Bu fikirləri Avropa Şurası Parlament Assambleyasının qarşısında Holokost qurbanlarının xatirəsinə həsr edilmiş tədbirdə Frankfurtun yəhudi icmasının ravvini və Almaniyanın Ortodoks Ravvinlər Konfransının prezidenti Aviçay Apel deyib.

27 yanvar – Holokost qurbanlarının xatirə günüdür. 2022-ci ildə bu tarixin Avropa Şurasında Holokost xatirəsi günü kimi anılması barədə qərar qəbul olunub.

# Bakıda xorvat şairin kitabı təqdim olunub

Yanvarın 24-də Bakı Kitab Mərkəzində xorvat şairi Draqo Ştambuk ilə görüş keçirilib. Görüş çərçivəsində onun Azərbaycan dilinə tərcümə edilmiş "Zefir" şeir toplusunun təqdimatı olub.



Xorvatiyanın ölkəmizdəki səfiri Branko Zebic şair, həkim-diplomat Draqo Ştambuk haqqında iştirakçılara məlumat verib. Bildirib ki, Draqo Ştambuk Zaqreb şəhərində tibb sahəsi üzrə təhsil alıb. 1983-cü ildən Londona köçüb və orada fəaliyyət göstərib. 1991-ci ildə Xorvatiya müstəqilliyini elan etdikdən sonra bir müddət diplomat kimi fəaliyyət göstərib. Draqo Ştambuk eyni zamanda məşhur şairdir, bir çox dilə tərcümə edilmiş 70-dən çox şeir kitabının müəllifidir. Təqdim olunan kitab Xorvatiyanın Mədəniyyət və Media Nazirliyinin dəstəyi ilə nəşr edilib.

Azərbaycan Milli Məclisi Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxışında deyib ki, "Zefir" şeir toplusu çox dəyərli kitablardandır: "Bu kitabı oxumaqla insanların Draqo Ştambukun bir şair kimi düşüncələrini, onun yaradıcılığını daha dərindən tanımağa imkanları olacaq. Kitab ilk dəfə olaraq Azərbaycan dilində nəşr olunub və bu, çox sevindirici haldır. İkilər heç zaman unudulmur və buna görə də Ştambuku təbrik edirəm".

Daha sonra təqdim olunan kitabı Azərbaycan dilinə tərcümə edən İlqar Əlfioğlu, "Söz" ədəbi layihəsinin yaradıcısı, ictimai xadim, şairə Nigar Həsənzadə, yazıçı-dramaturq İlqar Fəhmi "Zefir" kitabı haqqında danışaraq, onun Azərbaycan dilinə tərcümə edilməsinin gözəl bir addım olduğunu vurğulayıblar.

Şair Draqo Ştambuk "Zefir" kitabı haqqında danışaraq, onun poeziyasına qiymət verən tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Tədbirdə xorvat şairin Azərbaycan dilinə tərcümə olunmuş "Zefir" şeir toplusundan nümunələr səsləndirilib.

# Qarabağdakı erməni əhalisinin hüquqları Azərbaycanın qanunları əsasında təmin olunacaq

## Prezident İlham Əliyev Laçın-Xankəndi yolunda blokadanın olmadığını bir daha nəzərə çatdırıb

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarı dayandırılmalı və həmin ərazidə Azərbaycanın daimi monitorinq və təftiş aparmaq imkanı təmin edilməlidir.





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikri yanvarın 23-də ABŞ dövlət katibi Antoni Blinkenlə telefon söhbəti zamanı vurğulayıb.

Telefon söhbəti ABŞ dövlət katibinin təşəbbüsü ilə gerçəkləşib. Dövlət katibi Azərbaycan ərazisində Laçın dəhlizində yaranmış vəziyyətlə bağlı narahatlığını bildirib. A.Blinken ABŞ-nin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına sadiqliyini ifadə edib və sülh müqaviləsi üzrə danışıqları dəstəklədiyini bildirib.

Prezident İlham Əliyev Laçın-Xankəndi yolunda hər hansı blokadanın olmadığını qeyd edərək, 2022-ci il 12 dekabr tarixindən etibarən nəqliyyat vasitələrinin 980-nə yaxın keçidinin təmin olunduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, bunun 850-dən çoxu Rusiya sülhməramlılarına, 120-dən artığının isə Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus nəqliyyat vasitələri ilə həyata keçirilib.

Eyni zamanda Azərbaycan Prezidenti Qarabağda yaşayan 90-a yaxın xəstə və tibbi yardıma ehtiyacı olan şəxsin Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə Ermənistana aparılmasının təmin edildiyini deyib. İlham Əliyev bildirib ki, bütün bunlar Laçın-Xankəndi yolunun Azərbaycan tərəfindən bağlanmadığını göstərir.

Dövlətimizin başçısı onu da diqqətə çatdırıb ki, Ermənistan tərəfindən 2021-ci ilin istehsalı olan minalar qanunsuz olaraq Laçın yolundan istifadə edilərək daşınır.

Prezident İlham Əliyev ölkəmizin sülh prosesinə və Ermənistan ilə Azərbaycan arasındakı münasibətlərin normallaşdırılmasına sadiq olduğunu qeyd edib. Bildirib ki, Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh müqaviləsi beynəlxalq hüququn norma və prinsipləri, Azərbaycanın təqdim etdiyi beş prinsip əsasında yalnız ikitərəfli münasibətlərin normallaşdırılmasını özündə ehtiva etməlidir.

Prezident İlham Əliyev Azərbaycanın Qarabağ iqtisadi zonasında yaşayan mülki erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında təmin olunacağını qeyd edib.

Telefon söhbəti əsnasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu İstanbulda sərgi təşkil edib

əvvəli səh. 1-də

Tədbirin rəsmi hissəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna ünvanladığı məktub oxunub. Məktubda fondun türk xalqlarının mədəni-mənəvi dəyərlərinin qorunması, dünyada tanıdılması və gələcək nəsillərə ötürülməsi istiqamətində genişmiqyaslı fəaliyyəti yüksək qiymətləndirilib. Sərginin türk dövlətləri arasında qardaşlıq əlaqələrinin möhkəmlənməsinə töhfə verəcəyi vurğulanıb.



Sərginin açılışında çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva son bir əsr ərzində Türkiyənin böyük və bütün Türk dünyası üçün qürurverici inkişaf yolu qət etməsindən, həyatın bütün sahələrində sürətlə irəliləməsindən söz açıb. Günay Əfəndiyeva bildirib ki, qazandığı çoxsaylı nailiyyətlər, meydana gəlmiş çətinliklər, maneələr qarşısında daima nümayiş etdirdiyi dik duruş Türkiyəni beynəlxalq aləmdə nüfuzlu və qüdrətli bir dövlət kimi tanıdıb. Fondun prezidenti Türkiyənin digər türk dövlətləri ilə mövcud qardaşlıq münasibətlərinə toxunaraq, "Türkiyənin uğurları müstəqil türk dövlətlərindən tutmuş, tarixən müxtəlif səbəblərdən Türk coğrafiyasından ayrı düşmüş ən kiçik, azsaylı türk xalqlarını da sevindirir, qürurlandırır və birlik, həmrəylik içərisində parlaq gələcəyə ruhlandırır", – deyə vurğulayıb.

Günay Əfəndiyeva sərginin əhəmiyyətindən bəhs edərək deyib: "Bu fotokolleksiya mədəniyyətin və incəsənətin xilasedici gücünə bütün qəlbi ilə inanan, bu il vəfatının 105-ci ilində yad edilən Sultan II Əbdülhəmidin incə ruhunun nişanəsidir. 623 illik Osmanlı səltənətinin çağdaş dövrdə sürətlə yüksələn Türkiyə Cümhuriyyəti ilə qovuşmasıdır. Yeni bir yüzilliyə qədəm qoyarkən keçmişin xeyir-duasının alınmasıdır. Bu kolleksiya eyni zamanda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun üzv və müşahidəçi ölkələrinin əsrarəngiz şəhərlərinə zərif bir baxışdır. Türk dünyasına məxsus memarlıq nümunələrinin fərqli xüsusiyyətlərinin kəşf olunması və eyni zamanda mədəni irsin yaşadılmasıdır".

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Özgül Özkan Yavuz sərginin önəmindən söz açaraq Osmanlıda fotoqrafiya sənətinin Sultan II Əbdülhəmidin hakimiyyəti dönəmində qızıl dövrünü yaşadığına diqqəti çəkib: "Yıldız Sarayı dünyanın müxtəlif ölkələrinin mədəni irsini əks etdirən böyük bir fotokolleksiyaya malikdir. Biz də Mədəniyyət və Turizm Nazirliyi olaraq, bu arxivin təbliği və tədqiqi yönündə aparılan işləri dəstəkləyirik".

Nazir müavini türk dövlətlərinin ortaq mədəni irsi haqqında məlumatlılığın son dərəcə vacib olduğunu deyib: "Türk xalqlarının mədəniyyətini və incəsənətini sərgiləyən tədbirlərin təşkilini yüksək qiymətləndiririk".

Sərginin açılışında çıxış edən Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Milli Saraylar Başqanlığının sədr müavini Adnan Qayhan bildirib ki, Yıldız fotokolleksiyası, Osmanlı İmperiyası və dünya haqqında bilgi mənbəyi olmaqla yanaşı, həm də türk xalqları üçün dəyərli bir xəzinə və bəşəriyyətə məxsus mədəni irsdir. O, sərginin Türk-İslam sivilizasiyasının, əsrlər boyu yaşadılmış ortaq tarix, dil, din, mədəni dəyərlər və adət-ənənələrin daha ətraflı öyrənilməsində önəmli rolunu vurğulayıb.

Tədbirdə Türkiyə Prezidentinin baş müşaviri Fecir Alptekin, TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er, Türk Dövlətləri Təşkilatı baş katibinin müavini Ömər Kocaman, TÜRKSOY-un baş katibinin müavini Bilal Çakıcı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun üzv və müşahidəçi ölkələrinin rəsmiləri və diplomatları, o cümlədən Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva iştirak ediblər.

Fond tərəfindən nəşr olunan "Osmanlı arxivlərində türk mədəni irsi" kitabı qonaqlara təqdim edilib.

# İqtisadi Əməkdaşlıq Təşkilatına sədrlik Azərbaycana keçib

Yanvarın 24-də Özbəkistanın Daşkənd şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) Nazirlər Şurasının 26-cı iclası keçirilib. İclasda təşkilata sədrlik Azərbaycana keçib.




Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bununla bağlı bəyanatla çıxış edib. O, Azərbaycanın İƏT-in 2023-cü il üzrə sədrliyi çərçivəsində prioritet və planlarını açıqlayıb.

Nazir "Yaşıl keçid və qarşılıqlı bağlantılar" mövzusuna həsr olunan Azərbaycan sədrliyinin təşkilatın strategiya və proqramlarının, habelə "İƏT-2025" baxışlarının irəlilədilməsi üçün əhəmiyyət daşıyacağını vurğulayıb.

Ölkəmizin 2023-cü ildə sədrliyi dövründə iqtisadiyyat, enerji, nəqliyyat, turizm və digər sahələrdə bir sıra yüksək səviyyəli görüşlərin keçiriləcəyi diqqətə çatdırılıb.

Mərkəzi Asiya və Cənubi Qafqazdan keçməklə nəqliyyat marşrutlarının əhəmiyyət daşıdığı, bu xüsusda Azərbaycanın regional nəqliyyat və tranzit dəhlizlərinin inkişaf etdirilməsi üçün görülən əhəmiyyətli işlər barədə tədbir iştirakçıları məlumatlandırılıb. Bununla yanaşı, sözügedən istiqamətlərdə əməkdaşlığın irəlilədilməsi məqsədilə Türkiyə, Qazaxıstan və Özbəkistan ilə birgə üçtərəfli platformaların təsis edildiyi bildirilib. Azərbaycan, Türkiyə və Qazaxıstan arasında ötən ilin iyun ayında Bakıda keçirilmiş görüş zamanı qəbul olunmuş Bakı Bəyannaməsi və bununla əlaqədar Trans-Xəzər Şərq-Qərb Orta Dəhlizinin inkişafı üzrə qərarlar qeyd edilib.

Nazir çıxışı zamanı Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat dəhlizinin yaradılması istiqamətində görülən tədbirlərin vacibliyini vurğulayıb. Zəngəzur dəhlizinin bütün bölgə ölkələri arasında əməkdaşlığın inkişafı üçün xüsusi əhəmiyyət daşıyacağı qeyd edilib.

Sədrlik çərçivəsində Bakıda yaradılması nəzərdə tutulan İƏT-BMT Sənaye İnkişafı Təşkilatı (UNIDO) Təmiz Enerji Mərkəzinin, İƏT İqtisadi Tədqiqatlar Mərkəzinin fəaliyyətə başlaması istiqamətində tədbirlər görüləcəyi, Şuşanın 2026-cı ildə İƏT "Turizm paytaxtı"na namizədliyinin irəli sürüləcəyi də diqqətə çatdırılıb.

Ceyhun Bayramov Azərbaycan tərəfindən işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərindən bəhs edib, sözügedən ərazilərdə "yaşıl enerji" və azad iqtisadi zonaların yaradılması istiqamətində görülən tədbirlər barədə ətraflı məlumat verib.

İclasda təşkilatın fəaliyyətinə dair bir sıra sənədlər qəbul edilib. Nazirlər Şurasının iclasının yekun sənədi kimi qəbul edilmiş Daşkənd Kommünikesində Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatlara uyğun olaraq Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonundan Naxçıvan Muxtar Respublikasına nəqliyyat və kommunikasiya əlaqəsinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər, habelə ölkəmizin Türkiyə, Özbəkistan və Qazaxıstan ilə birgə həyata keçirdiyi üçtərəfli platformalar üzrə görülən işlər alqışlanıb.

Həmçinin Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması və hörmət əsasında tənzimlənməsinə dəstək dilə gətirilib. Bunun bölgədə mehriban qonşuluq əlaqələrinin yaradılmasına, davamlı sülh və iqtisadi tərəqqiyə töhfə verəcəyinə inam ifadə olunub.

# "Heydər Əliyev və milli teatr sənəti"

## Layihə çərçivəsində Heydər Əliyev Mərkəzində tamaşalar nümayiş olunacaq

2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Heydər Əliyev Mərkəzi bir sıra layihə və tədbirlərin keçirilməsini planlaşdırır. Mərkəzdə "Heydər Əliyev və milli teatr sənəti" layihəsi çərçivəsində silsilə tamaşaların nümayişi nəzərdə tutulur.

Fevralın 24-də layihə çərçivəsində Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi nümayiş olunacaq. Tamaşa Heydər Əliyev Mərkəzinin və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının təqdimatında göstəriləcək.

Tamaşanın quruluşçu rejissoru və rəssamı Xalq artisti Azər Paşa Nemətovdur. Səhnə əsərində SSRİ Xalq artisti Qara Qarayevin "Ölülər" üçün bəstələdiyi musiqi yeni versiyada təqdim ediləcək. Musiqi Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında səslənəcək.




Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyası Heydər Əliyevin ən çox sevdiyi səhnə əsərlərindəndir. Ulu öndər müsahibələrinin birində deyib: "Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım... Beləliklə, teatrımız Mirzə Cəlilin "Ölülər" pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. "Ölülər" pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə, o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir... Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, "Ölülər" kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir...".

Heydər Əliyev gənc yaşlarından teatra çox bağlı idi. Məktəb və tələbəlik illərində dram dərnəklərində səhnədə də çıxış edən Heydər Əliyev teatrı çox sevirdi və Azərbaycan milli teatrını xalqımızın milli sərvəti adlandırırdı. Ümummilli lider müntəzəm olaraq teatr tamaşalarına baxır, yaradıcı heyətlə görüşür, tövsiyələrini verirdi.

## Yapon qrupu performans göstərəcək

Fevralın 3-də Heydər Əliyev Mərkəzində "TATE-Hatoryu" qrupunun "Ənənəvi yapon qılınc döyüş sənəti üzrə səhnə performansı" adlı təqdimat olacaq.




Tədbir Yaponiyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı, "ITOCHU, JTI Azərbaycan" və "ISR Auto, Landmark Bakı"nın dəstəyi ilə təşkil olunacaq.

Bu barədə səfirlikdən məlumat verilib.

Tate özündə qədim samuray döyüş sənəti, rəqs və Kabuki elementlərini birləşdirən unikal bir səhnə performansı olub, döyüş və hadisə filmləri, habelə təqdimat zamanı göstərilən realistik və dinamik səhnələri canlandırır. Bu dəfə Nyu-Yorkda fəaliyyət göstərən "TATE Hatoryu" qrupu xüsusi qılınc döyüş səhnələri hazırlayaraq samuray döyüş növü ilə musiqinin müşayiətində səlis qılınc hərəkətləri ilə çıxış edəcək. Təqdimat qədim yapon ənənələrinə dayanan unikal incəsənət növünü yaxından tanımaq üçün fürsətdir.

# "Türk dünyasından Şuşaya – Şuşadan Türk dünyasına"

## Şeir və hekayələr toplusu Daşkənddə təqdim edilib

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) həyata keçirdiyi "Türk dünyasından Şuşaya – Şuşadan Türk dünyasına" adlı layihə çərçivəsində eyniadlı nəşrin təqdimatı olub.

Tədbirdə AMM-in direktoru Samir Abbasov Şuşanın tarix və mədəniyyətimizdəki rolunu xüsusi vurğulayaraq, Prezident İlham Əliyevin qala-şəhərimiz haqqında "Şuşa Azərbaycan üçün həm qürur, milli mənlik, həm də mədəniyyət, incəsənət və tarixdir" fikirlərini xatırladıb.

Qeyd olunub ki, TÜRKSOY tərəfindən 2023-cü ildə Şuşa şəhəri "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib və bu nəşrin təqdimatı "mədəniyyət paytaxtı" ili üzrə Özbəkistanda keçirilən ilk tədbirdir. Kitabda Türk dünyasını əhatə edən 17 şair və yazıçının Şuşa ilə bağlı şeir və hekayələri toplanılıb.

Özbəkistan Yazıçılar İttifaqının sədr müavini, şair Qayrat Məcid Şuşaya səfər təəssüratlarından danışıb, şəhərin qədim tarixə, zəngin mədəniyyətə və təkrarsız ənənələrə malik nadir məkanlardan olduğunu diqqətə çatdırıb.

Özbəkistan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun rektoru pedaqogika üzrə fəlsəfə doktoru Eldar Şermanov bu qəbildən tədbirlərin Azərbaycan-Özbəkistan mədəni-ədəbi əlaqələrinin inkişafında əhəmiyyətindən söz açıb.

Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin kafedra müdiri professor Nurbay Cabbarov, professor Səadət Məhəmmədova, dosent Gülbahar Aşurova, Azərbaycan Gənclər Fondunun nümayəndəsi Zülfiyyə Yaqubova, nəşrdə hekayəsi olan Nərgiz Əsədova və başqaları Türk dünyasının daha da yaxınlaşdırılması istiqamətində belə nəşrlərin vacibliyini vurğulayıblar.

Layihənin rəhbəri, DGTYB-nin başqanı şair İntiqam Yaşar təqdimat mərasiminin təşkilinə görə AMM-ə minnətdarlıq edib.

# "Mənim Vətənim oğlum idi..."

Bir neçə ay əvvəlin söhbətidir. Şəhidlər xiyabanına getmişdim. 21 yaşlı növcavan balasının məzarı yanında özünə yurd edən Xavər ana ilə yenidən rastlaşdım. "Anacan, belə etmə, soyuq-isti bilmirsən, nə vaxt gəlirəm, burdasan. Azarlayarsan, axı" dedim. Gözünü işıqlı fotosundan gülümsəyən Nurlanının daşlaşan təsvirindən çəkmədən elə söz dedi ki, ürəyim soğantək soyuldu: "İllərdi mən sübhdən evdən çıxıb, axşam gəlirdim. İki işdə işləyirdim. Gecə də oğlum yanacaqdoldurma məntəqəsində işləyirdi deyə evdə olmurdu. Mən balamın üzünü doyunca görmədim heç. Dəymə, heç olmasa, burda oturum. Onsuz da nə onun, nə də mənim tələsən yerimiz yoxdu ta".

Bəli, dolanışıq, məişət, təhsil... Sanki günləri qovuruq. Bir də görürük ki, balamız böyüdü və əgər qismətində varsa...

Yanvarın 21-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında bizi bu ağır mətləblərdən hali qılan səhnə aktının premyerası oldu. "İnanıram" adı verilən monotamaşa müharibədə yeganə oğlunu itirmiş qadının ağrı-acılarından, ümid və ümidsizliklərindən bəhs edir. Biz bir ananın timsalında Vətən savaşında oğul itirmiş anaların ümumiləşdirilmişmiş obrazını, yaşantılarını görə və onlara qoşulub hıçqıra bildik...



Tamaşada bütün hadisələr bir ağacın yanında baş verir. Belə ki, gənc qadın bir dağ kəndində arxeoloji ekspedisiyada iştirak edərkən yamacda təkbaşına boy atmaqda olan bir ağac görür. Elə bu ağacın kölgəsində oturarkən də ana olacağını öyrənir. Məhz bu məqamdan sonra qadınla ağac arasında mənəvi bağ, izahsız rabitə yaranır. Qadın müharibə səbəbindən arxeoloji qazıntı ərazisindən uzaq düşür. O, həmişə arzulayır ki, işğal altında qalan dağ yamacındakı bu ağacı oğluna göstərə bilsin. İllər sonra qadının oğlu həmin ərazini işğaldan azad edərkən anasının haqqında çox bəhs etdiyi o ağacı tanımadan şəhid olur. Artıq qadının bu dünyada, sadəcə, bir sığınacağı var – o ağac. Son dəfə ağacı görmək və məhz burada intihar etmək üçün işğaldan azad edilmiş yamaca qayıdır və bütün olanları ona nəql edir.

Biz gah ağlayan, gah gülən, gah uşaq kimi atılıb-düşən, gah da min ilin qocası kimi ağır-ağır nəfəs alan ananın xatirələrinin, oğlu ilə bağlı az-çox toplaya bildiyi nağılının müşayiətində onların ikinəfərlik dünyasına qonaq oluruq. Övladı ilə istədiyi kimi vaxt keçirə bilməyən, həyatın ucsuz-bucaqsız yol olduğuna inanıb hər gün neçə addım qət etdiklərinin hesab-kitabını aparan və beləcə, yaşamağı unudan anaların, valideynlərin, övladların, insanlığın ağrısı, nisgili vardı bu hekayədə.

Hərəmiz, sözsüz ki, bir pay götürdük. Məsələn, 18 yaşlı oğlunu müharibəyə yola salan ana hələ övladını tanımağa macal tapmır. Və sonra "Kaş uşağımla daha çox oynayaydım, onu parka, teatra, sirkə aparaydım. Bir şey istəyəndə "Dayan, oğlum, sonra, indi işim var yox, hə, bu dəqiqə, geyin, gedək" kimi sadə heyhat içini didib parçalayır.

Ona da, ümumən, oğlu müharibə də şəhid olan bütün analara da mütləq bir təsəlli, inam, tutunacaq ümid lazımdır. Ana durmadan bir sualın altında əzilir: ona zəng edən oğlu "Ana, inanıram ki..." deyir və fikrini tamamlamadan əlaqə itir. Sonra da şəhid olur. Çarəsiz ana durmadan dağa, daşa, divara, qara çərçivədəki şəklə, dibində intihar üçün dayandığı ağaca, yerin altında və üstündə nə varsa, hamısına bir sual verir: görəsən, o, nəyə inanırdı?!

Ananın son dedikləri qulaqlara qurğuşun kimi tökülür: "Biz Zəfər çaldıq. Torpaqlar azad olundu. Amma mən özümə yer tapa bilmirəm. Mənim Vətənim oğlum idi axı...".

Yazıçı-dramaturq Ülviyyə Heydərovanın "İnanıram" monopyesi əsasında hazırlanan eyniadlı tamaşanın quruluşçu rejissoru və səhnə tərtibatçısı Elşad Rəhimzadə, musiqi tərtibatçısı Aygül Quliyevadır.

Səhnə əsərində ana obrazını teatrın istedadlı aktrisası Zemfira Əbdülsəmədova canlandırır.

Aktrisadan xüsusi ovqat, ana yanğısı və qəhrəmanına ruhi bağlılıq istəyən obrazının öhdəsindən məharətlə gələn (tamaşa bitsə də, Zemfira xanımın göz yaşları dinmirdi) Zemfira Əbdülsəmədova təbii oyun cəhdinə nail oldu.

Sözsüz ki, müəyyən qüsurlar da qaçılmaz idi. Məsələn, intihar üçün yenicə işğaldan azad olunmuş əraziyə gələn ana özü ilə niyə kətil gətirsin? Onun üçün fiziki rahatlıq nə kimi önəm kəsb edir? Yaxud canlı planda heç bir əlavə tərtibat istəməyən tamaşada arabir aktrisaya mane olan rekvizitlər nəyə xidmət edirdi? Onsuz da mətn yükü çox olan və emosional qatda mizandan çox oyunu üzərində dayanan aktrisaya bu kimi əlavə rejissor tələbləri lazım idimi? Anlayıram, rejissorun əsasən kukla tamaşaları quruluşçusu olması bu məsələdə peşə vərdişi kimi qeyri-ixtiyari qabarır.

Hə, bir də müharibə, itki, ana ağrıları, ümumən, lokal mövzu olmaqdan çıxmalıdır. Axı müharibə bəşəri bəladır və dünyanın harasında yaşanmasından asılı olmayaraq, itkinin hiss inikası eynidir. İstənilən səhnə aktında, xüsusən, mono oyunlarda rejissor tamaşanın təsir gücünü artırmaq üçün ifaçıya əlavə yüklər verdikdə estetik detalları, ələlxüsus da, səhnədəki qadındırsa, müəyyən ştrixləri nəzərə almağa borcludur.

**Həmidə Nizamiqızı**

# "Düşün və yarat!"

## "Heydər Əliyev İli" çərçivəsində müsabiqə

Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Düşün və yarat!" adlı yaradıcılıq müsabiqəsi elan olunub.




"Heydər Əliyev İli" çərçivəsində reallaşan müsabiqə düşüncənin inkişaf etdirilməsi məqsədilə keçirilir.

Bu barədə məlumat verən Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov bildirib ki, mərkəzin sosial şəbəkə qrupuna əsərin fotosu ilə bərabər, texnikası, materialı, adı, müəllifin adı, soyadı, təvəllüdü, təhsil aldığı məktəbi və əlaqə nömrəsi yerləşdirilərək müsabiqəyə qoşulmaq mümkündür.

Müsabiqədə 12 yaşdan yuxarı hər kəs iştirak edə bilər. Ölçü və texnika sərbəstdir. İştirakçı maksimum iki əsər təqdim edə bilər. Əsərlər tək-tək yerləşdirilməlidir. Müəllifin yaşı nəzərə alınmaqla ərsəyə gətirdiyi əsər əsas götürüləcək. Kənar (müəllim, valideyn) müdaxiləsiz işlərə üstünlük veriləcək.

Müsabiqədə xarici ölkə vətəndaşları da iştirak edə bilərlər. Birinci turdan keçmiş əsərlər sərgidə nümayiş olunmaq üçün Xətai Sənət Mərkəzinə təqdim ediləcək.

## Firidun bəy Köçərlinin 160 illiyi qeyd olunub

Respublika Uşaq Kitabxanasında Firidun bəy Köçərlinin (1863-1920) 160 illiyinə həsr olunan tədbir keçirilib.

"Gənc Azərbaycan Dili və Ədəbiyyatı Müəllimləri Birliyi" tərəfindən təşkil olunan tədbirdə kitabxana əməkdaşları görkəmli maarifçi, ədəbiyyatşünas alim, publisist-yazıçı və tərcüməçi F.Köçərlinin həyat və yaradıcılığı haqqında söz açıblar.

Tədbirdə F.Köçərlinin ədəbiyyatşünas alim kimi fəaliyyəti, eləcə də dərslik və tərcümələri haqqında, müxtəlif aktual mövzularda məqalələri ilə bağlı məlumatlar da diqqətə çatdırılıb. Bildirilib ki, o, tükənməz məhəbbətlə sevdiyi milli ədəbiyyatı bütün həyatı boyu təbliğ və tədqiq etməklə məşğul olub, onun həm keçmişini, həm müasir nailiyyətlərini qiymətləndirməyin gözəl nümunəsini göstərib.

Tədbirdə F.Köçərlinin irsi ilə bağlı kitab sərgisi və sənədli film nümayiş olunub.

## Rusiyanın Xalq artistinin Bakıda ustad dərsləri



P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyası Nəfəs və zərb alətləri kafedrasının müdiri, Rusiyanın Xalq artisti, beynəlxalq müsabiqələr laureatı İrina Bısova yanvarın 23-də Bakıda, Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində faqot ixtisası üzrə ustad dərsləri keçib.

Ustad dərslərində Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdləri ilə yanaşı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələri, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan musiqi və uşaq incəsənət məktəblərinin şagirdləri də iştirak ediblər.

İ.Bısova ustad dərsi çərçivəsində faqotda ifa etməyin sirlərini bölüşərək, iştirakçıların suallarını cavablandırıb.

Yanvarın 26-da İ.Bısova Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində fleyta ixtisası üzrə ustad dərsləri keçəcək.

Y.A.Başmetin rəhbərlik etdiyi Ümumrusiya Gənclər Simfonik Orkestrinin solisti olan məşhur ifaçı hazırda fəaliyyətini Tbilisi şəhərində davam etdirir.

## Koreyalı arxeoloqlar Azərbaycanda tədqiqat işlərini davam etdirəcəklər

AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda Koreyanın Seul Dövlət Universitetinin Humanitar Elmlər Kolleci Arxeologiya və tarix departamentinin professoru Kim Yong İl və onun iki magistr tələbəsi ilə görüş olub.

Bu barədə AMEA-dan bildirilib. Qeyd olunub ki, professor Kim Yong İl 2009-cu ildən başlayaraq Qəbələ ərazisində institutun əməkdaşları ilə birlikdə bir sıra antik və orta əsrlərə aid arxeoloji abidələrdə çöl tədqiqat işləri aparır. 2022-ci ildə o, Mil düzündə yerləşən Dəmir dövrü qəbir abidələrinin tədqiqində də iştirak edib.

İnstitutun baş direktoru professor Abbas Seyidov bildirib ki, beynəlxalq tərkibli arxeoloji ekspedisiyaların elmi araşdırmaları təqdirəlayiqdir. Kim Yong İl qeyd edib ki, bu ilin iyun ayından etibarən bir neçə aparıcı Koreya arxeoloqu çöl tədqiqat işlərini Qəbələ və Mil düzündə davam etdirməyi, həmçinin müasir avadanlıqlar vasitəsilə abidələr yerləşən ərazilərdə xəritəçəkmə işləri aparmağı planlaşdırır.

Qonaqlar görüşdən sonra institutun Arxeoloji fondunda yerləşən müvafiq materiallarla da tanış olublar.

# Gənclər Gününə özəl

## "Anamın kitabı" yenidən ingilis dilində səhnədə

Mədəniyyət Nazirliyinin layihəsi olaraq ötən il Azərbaycan Dövlət Akademik Musiqili Teatrında ingilis dilində səhnələşdirilən "Anamın kitabı" tamaşası fevralın 2-də - Gənclər Günündə bir daha nümayiş olunacaq.



Böyük ədib Cəlil Məmmədquluzadənin eyniadlı pyesi əsasında hazırlanan tamaşada əsas mövzu üç qardaşın dil, din, düşüncə tərzlərinin fərqliliyi nəticəsində aralarında yaranan sürəkli mübahisələrdən bəhs edir.

Günümüzlə səsləşən, bizi narahat edən və düşündürən mövzu əsərin baş qəhrəmanı olan Ananın timsalında təqdim olunur. Ana övladlarını öz milli-mənəvi dəyərlərinə sahib olmağa, ana dilinə yiyələnməyə və birliyə çağırır. Oğullar isə daha çox müasir dünyanın tələblərinə cavab verməyə can atır, nəticə etibarilə innovativ texnologiyalarla zəngin bir mühitin fonunda öz milli dəyərlərini itirmək təhlükəsi ilə üz-üzə qalırlar. Beləliklə, Ana övladları ilə mübarizəyə başlayır. Onun qəlbini dəlib-deşən dərd yükü isə səngimir...

Səhnə əsərinin quruluşçu rejissoru İradə Gözəlova, ingilis dilinə tərcümə edəni Tərlan Rəsulov, quruluşçu rəssamı Vüsal Rəhim, videomühəndisi Murad Həsənovdur. Rəqslərin quruluşu Xalq artisti Pərviz Məmmədrzayev və rejissor Zaur Əliyevə aiddir.

# "Müstəqilliyə aparan yol"



Regional mədəniyyət idarələrinin (RMİ) tabeliyindəki müəssisələrdə 20 Yanvar – Ümumxalq Hüzn Günü münasibətilə müxtəlif səpkili tədbirlər təşkil olunub.

**Şəmkir RMİ.** Şəmkir Rayon Heydər Əliyev Mərkəzinə məktəblilərin ekskursiyası təşkil olunub. Faciə ilə bağlı məktəblilərə ətraflı məlumat verilib, videoçarx nümayiş etdirilib.

Şəmkir rayon MKS-nin Uşaq şöbəsi "20 Yanvar yaddaşımızın əbədi ağrısıdır" başlığı altında anım mərasimi təşkil edib.

Daşkəsən Rayon Mədəniyyət Mərkəzi və rayon İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə keçirilən anım tədbirində isə 1990-cı il yanvarın 20-nə keçən gecə Bakıda dinc əhaliyə qarşı törədilmiş qırğından bəhs edilib. 33 il əvvəl baş verən dəhşətli hadisələr Azərbaycan xalqının azadlığı və ərazi bütövlüyü uğrunda qəhrəmanlıq mübarizəsi kimi səciyyələndirilib.

***

**Lənkəran RMİ.** Lənkəran Şəhər Heydər Əliyev Mərkəzində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli lider Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və digər çıxış edənlər 20 Yanvar qırğının səbəbləri, Azərbaycan tarixində yeri barədə fikirlərini bölüşüblər. Sonra Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyində səsləndirdiyi bəyanatı əks etdirən videoçarx nümayiş olunub.

***

**Bərdə RMİ.** Bərdə Rayon Heydər Əliyev Mərkəzində "20 Yanvar – hüzn və qürur yerimiz"



adlı tədbir keçirilib. Qeyd olunub ki, 33 il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə qarşı həyata keçirilmiş dəhşətli terror aktıdır. Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar faciəsi xalqımızın öz suverenliyi uğrunda apardığı mübarizənin şərəfli səhifəsidir.

***

**Kürdəmir RMİ.** Beyləqan Rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən anım tədbirində mərkəzin "Gənclik" xalq teatrı tərəfindən "Vətən, sənə canım fəda!" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

***

**Sumqayıt RMİ.** Abşeron Rayon Heydər Əliyev Mərkəzində "Ümummilli lider Heydər Əliyev və 20 Yanvar həqiqətləri" adlı tədbir keçirilib. Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev və digər çıxış edənlər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıblar.

***

**İsmayıllı RMİ.** İsmayıllı Rayon Mərkəzi Kitabxanasında "20 Yanvar qan yaddaşımızdır" adlı sərgi və məlumat saatı təşkil edilib. Çıxışlarda bildirilib ki, əslində, 20 Yanvar hadisələri Azərbaycan tarixində təkcə faciə deyil, milli azadlığın qalib gəldiyi gündür.

***



**Sabirabad RMİ.** Sabirabad Rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edənlər 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli lider Heydər Əliyevin müstəsna rolunu xüsusi vurğulayıblar.

Hacıqabul Rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM) Hacıqabul nümayəndəliyi, rayon Gənclər və İdman İdarəsi, Uşaq və Ailələrə Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 20 Yanvar hadisələri barədə ətraflı məlumat verilib, bu günün təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun zirvəsi olduğu qeyd edilib.



***

**Ağdaş RMİ.** Zərdab Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə şəhər 1 saylı məktəb-liseydə "20 Yanvar Azərbaycan xalqı üçün unudulmaz tarixdir" adlı tədbir və sərgi keçirilib.

***

**Biləsuvar RMİ.** Salyan Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyevin siyasi qətiyyəti və 20 Yanvar həqiqətləri" adlı tədbir keçirilib, sərgi təşkil olunub. "Qanlı Yanvar" hadisələrinə siyasi qiymət verilməsində Heydər Əliyevin rolundan bəhs edilib.

Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə şagirdlərin ifasında ədəbi-bədii kompozisiya təqdim edilib. Sonra 20 Yanvar şəhidi Səxavət Quliyevin şəxsi əşyalarından ibarət sərgiyə baxış olub. Şəxsi əşyalar şəhidin ailə üzvləri tərəfindən muzeyin fonduna təqdim edilib.



***

**Masallı RMİ.** Masallı Rayon Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən rəsm dərnəyi şagirdlərinin əl işlərindən ibarət sərgi təşkil edilib.

Yardımlı Rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə "Qanlı Yanvar" – 33" adlı sərgi nümayiş olunub.

***

Xaçmaz RMİ və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində "20 Yanvar – qan yaddaşımız" mövzusunda rəsm müsabiqəsi keçirilib. Müsabiqədə Xaçmaz şəhər Uşaq incəsənət məktəbinin Rəssamlıq şöbəsi şagirdlərinin əsərləri nümayiş olunub. Qalib və fərqlənmiş iştirakçılar diplomlarla təltif ediliblər.

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə "Heydər Əliyev və 20 Yanvar həqiqətləri" adlı rəsm və kitab sərgisi keçirilib.

***

**Şəki RMİ.** Balakən rayon 2 saylı Diyarşünaslıq klubunda keçirilən anım tədbirində 33 il əvvəl Azərbaycan xalqının öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bir daha göstərdiyi vurğulanıb.

***

**Ağstafa RMİ.** Ağstafa Rayon Mədəniyyət Mərkəzində "Müstəqilliyə aparan yol" adlı tədbir keçirilib. 20 Yanvar həqiqətlərini əks etdirən videoçarx və ədəbi-bədii kompozisiya nümayiş olunub.

Tovuz Dövlət Rəsm Qalereyasında "Unutmadıq, unutdurmarıq" adlı rəsm dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgi təşkil edilib.

Tovuz Rayon Aşıq Ə.Cəfərov adına Mədəniyyət Mərkəzi və Qazax Rayon Heydər Əliyev Mərkəzi tərəfindən də 20 Yanvar faciəsinin 33-cü ildönümü ilə əlaqədar tədbirlər keçirilib.

***

**Gəncə RMİ.** Gəncə şəhər Uşaq incəsənət məktəbində Ümumxalq Hüzn Gününə həsr olunan sərgi keçirilib. Sərgidə məktəbin Təsviri incəsənət şöbəsi şagirdlərinin əl işlərindən ibarət rəsmlər yer alıb.

Samux Rayon Heydər Əliyev Mərkəzində GİKM-in Samux nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Danışan talelər" adlı film nümayiş etdirilib.

Regional idarənin tabeliyindəki digər mədəniyyət müəssisələrində də 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar tədbirlər təşkil olunub.

***

Ağcabədi RMİ-nin kollektivi Ağcabədi rayonunda yerləşən Qəhrəmanlar parkında 20 Yanvar şəhidlərinin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər.

**Hazırladı: N.Məmmədli**

## Bəhruz Kəngərlinin anadan olmasının ildönümü qeyd edilib

Görkəmli realist rəssam Bəhruz Kəngərlinin (1892-1922) anadan olmasının 131-ci ildönümü ilə bağlı yanvarın 21-də Naxçıvan şəhərində tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və NMR Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə mədəniyyət və incəsənət nümayəndələri rəssamın məzarını ziyarət ediblər.



Bəhruz Kəngərli Muzeyində davam etdirilən mərasimdə mədəniyyət naziri Natəvan Qədimova rəssamın Azərbaycan təsviri sənətinə verdiyi töhfələrdən danışıb. Vurğulayıb ki, milli rəssamlıqda realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərə janrlarının formalaşmasında Bəhruz Kəngərlinin mühüm xidmətləri olub.

Təsadüfi deyil ki, Ümummilli lider Heydər Əliyev Bəhruz Kəngərli yaradıcılığına böyük dəyər verib. O deyib: "Bəhruz Kəngərlinin əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə, mən insan obrazlarını deyirəm, xüsusən, o ağır dövrün, 1918-1919-1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını öz əsərlərində əks etdirib".

Ümummilli liderin təşəbbüsü ilə Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi yaradılıb, 2002-ci ildə Heydər Əliyev muzeyin açılış mərasimində iştirak edib. 2012-ci ildə isə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə B.Kəngərlinin 120 illik yubileyi geniş şəkildə qeyd edilib.

NMR Rəssamlar Birliyinin sədri Əməkdar rəssam Ülviyyə Həmzəyeva, Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli Naxçıvanda rəssamlıq sənətinin inkişafında B.Kəngərli irsinin xüsusi rolunu vurğulayıblar. Qeyd olunub ki, rəssamın yaradıcılığı milli ruh, azərbaycançılıq ideyaları aşılayan bir xəzinədir.

Sonda Bəhruz Kəngərli adına Rəssamlar parkında fırça ustasının abidəsi ziyarət edilib, xatirə şəkli çəkdirilib.

## Şəkidə Şəfiqə Axundovanın yaradıcılıq gecəsi keçirilib



Şəki RMİ Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbində Xalq artisti, Şərqdə ilk opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın (1924-2013) doğum günü ilə bağlı tədbir keçirilib.

İlk olaraq şəhidlərin və bəstəkarın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra sənətkarın həyat və yaradıcılığı haqqında məlumat verilib, videoçarx nümayiş olunub.

Məktəbin bir qrup müəllim və şagirdinin ifasında bəstəkarın əsərləri səsləndirilib.

Sonda RMİ-nin rəisi Azər Yusubov və məktəbin direktor əvəzi Sevil Rəsulova çıxış edərək bəstəkarın zəngin yaradıcılığı haqqında fikirlərini bölüşüblər.

## Qax Dövlət Kukla Teatrında dörd yeni tamaşa hazırlanacaq

Təsdiq edilmiş repertuar plana əsasən, 2023-cü ildə Qax Dövlət Kukla Teatrında dörd yeni tamaşa hazırlanacaq.




Teatrın baş rejissoru Əməkdar artist Yusif Abdurahmanov bildirib ki, bu il teatrın səhnəsində Osman Abdullayevin "Sehrli torba", "Tülkü və quyruq", Astrid Lindqrenin "Uzuncorab Pippi" və Əzizə Əhmədovanın "Necə boz ayı, aldı ev payı" əsərləri tamaşaya qoyulacaq.

Yaradıcı kollektiv artıq "Sehrli torba" tamaşası üzərində hazırlıq işlərinə başlayıb, rol bölgüsü aparılıb. Tamaşanın rejissoru Rahib Məmmədov, rəssamı Mayis Abdullayev, musiqi tərtibatçısı Nicat Fətəliyevdir. Tamaşa uşaqlara martın sonunda təqdim olunacaq.

## "Mahnıları ilə sevilən bəstəkar"

Kürdəmir RMİ-nin əhatə etdiyi Beyləqan rayon Niyazi adına Uşaq musiqi məktəbində görkəmli bəstəkar, Azərbaycanın Xalq artisti Elza İbrahimovanın (1938-2012) 85 illik yubileyinə həsr olunmuş "Mahnıları ilə sevilən bəstəkar" adlı tədbir keçirilib.

Tədbirdə məktəbin müəllim və şagirdləri, mədəniyyət müəssisələrinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayan tədbirdə çıxış edənlər görkəmli bəstəkarın həyat və fəaliyyətindən, onun Azərbaycan musiqisinə bəxş etdiyi unudulmaz musiqi əsərlərindən söz açıblar.

Sonda müəllimlərin ifasında bəstəkarın əsərlərindən ibarət konsert proqramı təqdim olunub.



## Ermənilər Kəlbəcərdəki alban irsini necə saxtalaşdırıb?





Qafqaz Albaniyasının önəmli yadigarlarından olan Xudavəng monastır kompleksi Kəlbəcər rayonu ərazisində, Tərtərçayın başlanğıcında yerləşir. Monastır kompleksi Qafqaz Albaniyası dövlətinin Xaçın knyazlığında dini-siyasi mərkəz, bir müddət isə alban katolikosluğunun mərkəzi kimi fəaliyyət göstərib. XII əsrdə Xaçın knyazı Böyük Həsənin oğlu Vaxtanqın ailə vəsaiti hesabına kompleks yenilənib və əlavə tikililər inşa edilib. Diofizit xarakterli freska elementlərinə malik azsaylı memarlıq nümunələrindən sayılan Xudavəng monastırına əsas bazilika, Arzu xatın və Həsən Cəlal kilsəsi olmaqla bir çox memarlıq nümunələri daxil olub.

AMEA Albanşünaslıq Elmi Mərkəzinin Qafqaz Albaniyası memarlıq abidələrinin və mənəvi irsinin tədqiqi sektorunun müdiri tarix üzrə fəlsəfə doktoru, dosent Natiq Alışov bildirir ki, 1836-cı ildən Alban kilsəsi yeparxiyaya çevrilərək Üçmüədzin kilsəsinə tabe edildikdən sonra ermənilər alban kilsələrinə qarşı maddi və mənəvi terrora başlayıblar. Kəlbəcər rayonunun erməni qəsbkarları tərəfindən 1993-cü ildə işğalından sonra Xudavəng monastırı da onların tam nəzarəti altına keçib. Aparılmış araşdırmalarla müəyyən edilib ki, 1997-2011-ci illərdə ermənilər bu kompleksdə qanunsuz arxeoloji və təmir-bərpa işləri aparıb, bu "tədqiqatlar"ın nəticəsi olaraq "Dadivəng monastırında bərpa – 1997-2011" adlı erməni dilində kitab çap etdirilib. Abidədə qeyri-qanuni arxeoloji tədqiqat və bərpa prosesinə (əslində, saxtalaşdırma işləri) "Adrien Martirosyanın xatirəsinə naməlum donor" və "Amerika erməni memarlığını öyrənən təşkilat" maliyyə dəstəyi verib.

Qeyri-qanuni tədqiqatlar zamanı aşkar edilmiş epiqrafik abidələr Ermənistana daşınıb. Mövcud epiqrafik nümunələrin biri 1182-ci ildə hakimiyyətə gələn Vaxtanq tərəfindən öz əli ilə yazılmış daş abidədir. Epiqrafik yazıda onun 40 il müddətində apardığı müharibələr və Xudavəng monastırındakı fəaliyyətindən geniş şəkildə bəhs edilir. "Tədqiqatlar" zamanı alban dövrünə aid çoxlu məzarlıqlar talanıb. "Bərpa" işlərində Ermənistanda mövcud olan Ani karxanasındakı tuf daşlardan geniş şəkildə istifadə edilib. Arzu xatın kilsəsi daxilində aparılan bərpa işləri zamanı binanın döşəməsində 20 santimetr dərinlikdə küpə daxilində Ağqoyunlu, 1524-1576-cı illərdə Azərbaycan Səfəvilər dövlətində hakimiyyətdə olmuş I Təhmasib və 1578-1587-ci illərdə hakimiyyətdə olmuş Məhəmməd Xudabəndə dövrlərində zərb edilmiş sikkələr aşkar edilib.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun şanlı Qələbəsindən sonra imzalanan üçtərəfli bəyanata əsasən, erməni işğalçıları Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz tərk etməli oldular. Kəlbəcəri boşaltmaq (bəyanata əsasən, 15 noyabrda olmalı idi) üçün 10 gün əlavə möhlət alan ermənilər möhlətdən sui-istifadə edərək Arzu xatın kilsəsinin şərq divarındakı freskaların bir hissəsini xüsusi üsullarla xaricdən dəvət etdikləri mütəxəssislərin köməyi ilə kəsərək Ermənistana aparıblar.

Natiq Alışov bildirir ki, abidədə kompleks şəkildə alban memarlığına uyğun konservasiya işləri görülməli, kompleksin inkişaf dinamikasının araşdırılması üçün vaxtilə görkəmli arxeoloq alim Rəşid Göyüşov tərəfindən başlanılan arxeoloji tədqiqatlar bərpa edilməlidir.

# Nemanzadənin nəticəsi: “Babamdan qalan irs Azərbaycanın mənəvi sərvətidir”

## “Moskvada böyümüşəm. Amma uşaq yaşlarımızdan evimizdə babamın portretlərini və “Molla Nəsrəddin” jurnalının orijinal nüsxələrini görmüşük”



**Ötən il Azərbaycanın maarif və mətbuat fədaisi, publisist, ictimai-siyasi xadim Ömər Faiq Nemanzadənin (1872-1937) 150 illiyi dövlət başçısının sərəncamı ilə geniş şəkildə qeyd olundu. Yubiley tədbirləri bu il də davam edir.**

Yubileylə əlaqədar Böyük Britaniyadan Vətənə gələn görkəmli ziyalının nəticəsi Ülviyyə Pepinova bu günlərdə redaksiyamızın qonağı oldu.

*– Ülviyyə xanım, sizi oxucularımıza necə təqdim edək?*

– Mən Ömər Faiq Nemanzadənin qızının nəvəsiyəm. Kamilə nənəm Ömər Faiqin böyük qızıdır. Atam Fuad Pepinov Kamilə xanımın oğludur. Atam 16 yaşından Rusiyada yaşayıb. Ali təhsilini də orada texniki sahə üzrə alıb. 2017-ci ilə qədər Rusiya Elmlər Akademiyasının İnformasiya Problemləri İnstitutunda şöbə müdiri işləyib. Mən Britaniyada Azərbaycan icmasının üzvüyəm. Avropa İttifaqı siyasəti üzrə təhsil almışam. Bir müddət Böyük Britaniya-Azərbaycan Ticarət Palatasında işləmişəm. Həmçinin Ahıska Türkləri İctimai Təşkilatının işləri ilə məşğul olmuşam. On ilə yaxındır Britaniyada uşaq yazıçıları üçün ədəbi dərnəyə rəhbərlik edirəm. Kiçik kitab klubundan başlanan işim sonradan genişləndi.

2019-cu ildən Nemanzadənin xatirəsinin əbədiləşdirilməsi və irsinin araşdırılmasına başlamışan. İkinci Qarabağ müharibəsində isə bir vətəndaş borcu olaraq Azərbaycanın haqq işinin beynəlxalq aləmə çatdırılmasına çalışdım. Buna görə də ötən il aprelin 22-də Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayına dəvət edildim və mükafatlandırıldım. Diasporla İş üzrə Dövlət Komitəsindən bu tədbirə dəvət alanda da qeyd etmişdim ki, biz bu işi təmənnasız edirdik. Biz gecələri yatmadan ingilis dilində yazırdıq, xəbərlər paylaşırdıq və müəyyən qruplarla öz haqq səsimizi ucaldırdıq. Hazırda Azərbaycan icmasının üzvü kimi bu istiqamətdə də işimi davam etdirirəm.

*– Pepinovlarla Nemanzadələrin qohumluq əlaqələrinə də aydınlıq gətirərdiniz...*

– Əhməd bəy Pepinov Ömər Faiq Nemanzadənin bacısının oğlu idi. Əhməd bəyi, demək olar ki, Ömər Faiq tərbiyə etmişdi. Onun Əhməd bəy üzərində təsiri çox olmuşdu. Yəni Ömər Faiqin bacısı Pepinovların gəlini idi. Sonradan isə nənəm Kamilə xanım Pepinovlar nəslindən olan babamla ailə qurur. Atam İskəndər Pepinov və Kamilə Nemanzadənin oğludur. Anam II Dünya müharibəsi illərində 402-ci Azərbaycan diviziyasının komandiri olmuş Əli Nağı Həsənov və Əməkdar tibb işçisi, 1941-1942-ci illərdə səhiyyə nazirinin müavini olmuş Həlimət Davudovanın qızıdır. Həm Pepinovlar, həm də Nemanzadələr 30-cu illər repressiyası zamanı “xalq düşmənləri”nin siyahısında idi. Buna baxmayaraq, bu ailələr arasında dostluq davam edib, ana tərəfdən babam və nənəm uşaqlıqdan bir-birini tanıyıblar. Kamilə nənəm Bakıda Tibb İnstitutunda təhsil alarkən Azərbaycan Sənaye İnstitutunda (indiki ADNSU – red.) memarlıq ixtisası üzrə oxuyan İskəndər Pepinovla ailə qurub. İskəndər Pepinov və Əhməd Pepinov əmiuşaqları olublar. İskəndərin atası Süleyman bəy və Əhməd bəyin atası Ömər bəy doğma qardaş idilər. Yeri gəlmişkən, bunu da qeyd edim ki, Xalq artisti Lütfəli Abdullayevin həyat yoldaşı Sevda Pepinova Əhməd bəyin qızıdır.

*– Ötən il Ömər Faiq Nemanzadənin anadan olmasının 150 illiyi tamam oldu, ancaq tədbirlər bu il də davam edir...*

– İlk növbədə, ölkəmizin rəhbərliyinə, Prezident İlham Əliyevə ulu babamın yubileyi ilə bağlı imzaladığı sərəncama görə təşəkkür edirəm. Ötən il bir sıra tədbirlər keçirildi. Nəzərdə tutulan tədbirlərin bir qisminin bu il reallaşmasına qərar verdik. Azərbaycan Milli Elmlər Akademiyasında avqust ayında konfrans keçirildi. Sonra başqa tədbirlər də təşkil olundu. Bu tədbirlərin bəzilərinə atam və Ömər Faiq Nemanzadənin digər qohumları da qatılmışdı. Həmçinin ötən il yubileylə bağlı Milli Azərbaycan Tarixi Muzeyi və Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi ilə danışıqlarımız olmuşdu. Ədəbiyyat Muzeyində babamın şəxsi əşyaları qorunur. Bu əşyaları 1970-ci ildə nənəm muzeyə hədiyyə edib.

Bu ilin ilk tədbirlərindən biri gənc yazıçılar Nəcəf Əsgərzadə və Nicat Həşimzadənin “İşığımız sönməyəcək” kitabının təqdimatı oldu. “İşığımız sönməyəcək” fikri babama aiddir. Bu gənclərin Azərbaycan tarixinə təmənnasız xidmətini görəndə düşündüm ki, həqiqətən də, işığımız sönməyəcək. İnanıram ki, Nemanzadənin yeni nəsillər tərəfindən tanınmasında bu kitabın da rolu olacaq. Sonra Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən çap olunan fotoalbom təqdim edildi. Albomda babamın indiyə qədər məlum olmayan fotoları yer alıb. Tədbirlərin bu il davam etməsinə gəlincə, ötən ilin oktyabrında sərəncamdan sonra bütün layihələri reallaşdırmaq mümkün olmadı, ona görə bəzilərini bu ilə keçirməli olduq.

*– Milli Tarix Muzeyinə təqdim etdiyiniz bu fotolar ailə arxivinizdə idi?*

– Bu fotolar nəsildən-nəslə ötürülüb və biz ailə olaraq bu nümunələrin qorunmasına məsuliyyət daşıyırıq. Bütün fotolar bizim ailədə qorunurdu. Onları muzeyə verdik. Əlbəttə ki, o dövrdə fotolar elə də çox olmayıb. Bir də nənələrimiz sovet rejiminin qəddarlığını gördüklərindən daim qorxu içində yaşayıblar. Ələ keçməsin deyə, təəssüf ki, bəzi sənədləri yandırıblar. Qalan fotolar da bir tarixdir. Bu fotoalbom 6 aya başa gəldi. Albomdakı ən maraqlı nümunə Nemanzadənin zəhməti sayəsində 1894-cü ildə Şəkidə açılan ilk Azərbaycan məktəbi – “Üsuli-cədid” məktəbinin kollektivi ilə olan fotodur.

*– Qeyd etdiyiniz fotolardan əlavə ailədə başqa sənədlər də qorunurmu?*

– Bizdə olan bütün arxivi Milli Tarix Muzeyinə təqdim etdik. Bunu bütün qohumlar üçün deyə bilmərəm. Daha çox material bizim evdə idi. Bu da foto və məktublardan ibarət idi. Bir neçə məktub qalıb. Düşünürük ki, bunlar elə də ictimai əhəmiyyət kəsb etmir. Çünki siyasi-ictimai məzmunlu olsaydı, yəqin ki, nənəm onları qorumazdı. Bu məktublar nənəmlə babam arasında yazışmalardır. Ərəb qrafikalı Azərbaycan əlifbası ilə yazıldığı üçün məktubların məzmunundan məlumatsızıq.

*– Yubileylə bağlı daha nə kimi tədbirlər planlaşdırırsınız?*

– Mart-aprel aylarında rəsmi tədbirin keçirilməsi gözlənilir. Mədəniyyət Nazirliyinin xətti ilə də tədbirlər planlaşdırılır. Tbilisidə M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyi və Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən də tədbirlərin keçirilməsi nəzərdə tutulub.

*– Babanızla bağlı eşitdiyiniz maraqlı xatirə, əhvalat varmı?*

– Sualınıza keçməzdən öncə bir məsələni söyləmək istərdim. Mən ulu babamın yazdığı bütün fikirlərlə razıyam, amma bir fikrindən başqa. Hərdən düşünürəm, o indi sağ olsaydı, ona deyərdim ki, bax, baba, mən bilirəm, sən çox üzülürsən ki, mən rus dilində düşünüb danışıram. Sən deyirdin ki, dilini sevməyən insan millətini sevməz. Amma mən bu mövzuda səninlə tam razı deyiləm. Çünki biz rus və ingilis dillərində danışsaq da, millətimizi həmişə sevmişik. Biz sənin nəvə və nəticələrin olaraq bunu həm də sübut edirik.

Mən Moskvada böyümüşəm. Amma uşaq yaşlarımızdan evimizdə babamın portretlərini və “Molla Nəsrəddin” jurnalının orijinal nüsxələrini görmüşük. Jurnalın 4 cildinin orijinalı isə hələ də bizdədir. Bir uşaq üçün, əlbəttə ki, bu karikatura və illüstrasiyalar maraqlı idi. Biz belə bir mühitdə böyüdük.

> “Mən ulu babamın yazdığı bütün fikirlərlə razıyam, tək birindən başqa. Babam yazırdı ki, dilini sevməyən insan millətini sevməz. Amma, baba, mən bu mövzuda səninlə razı deyiləm. Çünki biz rus və ingilis dillərində danışsaq da, millətimizi həmişə sevmişik. Sənin nəvə-nəticələrin olaraq bunu sübut etmişik”

Tarixi gerçəkləri isə nə bacım, nə də mən bilirdik. Ahıska türkü olmağımızı belə bilmirdik. Çünki atamın ailəsində elə qorxu var idi ki, onlar bizə bu barədə bir kəlmə də deməmişdilər. Sadəcə, əcdadımızın nə qədər önəmli şəxs olduğunu bilirdik. Biz bütün həqiqətlərdən SSRİ-də yenidənqurma dövründə, 1980-ci illərin ikinci yarısında xəbərdar olmağa başladıq. O vaxt nənəm yaşayırdı və mənim 12-13 yaşım var idi. Bu gün çox heyfsilənirəm ki, Kamilə nənəm əsl qaynaq-mənbə olduğu halda mən ondan heç nə öyrənə bilməmişəm.



Yenidənqurma illəri mənim üçün nəslimi tanıma baxımından mühüm dövr oldu. O vaxt bizə Azərbaycandan, Türkiyədən tarixçi və jurnalistlər gəlməyə başladı. Atamın türksoylu olduğunu, Nemanzadənin böyük ictimai fəaliyyətini də həmin illərdə bildim. Atamla görüşlərdə həmişə onun yanında oturub danışdıqlarını dinləyirdim. Atam uzun illər həyatını Ahıska türklərinin hüquqlarının müdafiəsinə həsr edib.

*– Nemanzadə irsinin araşdırılması və təbliği ailənizi qane edirmi?*

– Nemanzadənin adı Azərbaycanda hər zaman anılıb. Hətta dərsliklərə belə salınmışdı. Amma 2000-ci illərin ortalarında nə baş verdisə, onun adı dərslikdən də çıxarıldı və çox az xatırlandı. Biz bundan narahat olduq. “Molla Nəsrəddin”lə bağlı 2000-ci illərdə yazılan araşdırmalarda nədənsə adı az çəkilməyə başladı.

*– Mirzə Cəlillə babanızın münasibətləri haqqında nə deyərdiniz?*

– Mirzə Cəlil və babam “Molla Nəsrəddin” dərgisində təsisçi kimi bərabərhüquqlu idi. Mən bəzən təəccüb edirəm ki, bəziləri Ömər Faiqi necə Mirzə Cəlilin köməkçisi adlandıra bilir. Çünki bu adamların hər birinin özünəməxsus fikirləri var. Əlbəttə, rəsmi olaraq Mirzə Cəlil baş redaktor idi. O vaxt Nemanzadənin irəli çəkilməsinə icazə verilmirdi. Azad düşüncəsinə görə hətta məhbəsə də salınmışdı. 1907-ci ildə karikaturaya görə müəllif kimi həbs edilən kim idi? Təbii ki, Nemanzadə.

*– Ömər Faiq “Şərqi-Rus” qəzeti ilə də əməkdaşlıq edib. Qəzetin redaktoru Məhəmməd ağa Şahtaxtlı ilə aralarında müəyyən fikirayrılığının olduğu da deyilir...*

– Bəlkə də var idi. Sosial şəbəkə hesabları üzərindən bəzi adamlar tərəfindən belə fikirlərin ortaya atılması bizi çox düşündürür. Nənəmin xatirələrindən eşitdiyim qədərilə, onların arasında həmişə polemika, fikir ayrılığı olub. Dil, əlifba məsələsində Əli bəy Hüseynzadə ilə də həmçinin. Fərqli görüşlərə sahib olub müzakirə etmək normaldır. Bəzən bu münasibətləri nədənsə düşmənçilik kimi qələmə verirlər. Bütün bu məsələlərə aydınlıq gətirmək üçün babama həsr olunan sayt yaratdım, sosial şəbəkə hesabları da açdım. Bu məsələlərin dərindən araşdırılmasına gərək var.

*– Yubiley tədbirlərində babanız haqqında sizi təəccübləndirən hər hansı bir fakt oldumu?*

– Babamın irsinə münasibət məndə böyük ümid yaratdı. Onun haqqında deyilən sözlər, yazılan məqalələr yeni yol açdı. Ən böyük hədiyyə isə görkəmli ədəbiyyatşünas professor Vilayət Quliyevin ötən ilin dekabrında mənə yazdığı mesaj oldu. Vilayət müəllim ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan “Azərbaycan” qəzetinin (1918-1920) tam külliyyatının ərəb qrafikalı əlifbadan indiki Azərbaycan əlifbasına köçürüldüyünü yazdı. Bu kontekstdə babamın məqalələrinin də ayrıca nəşri məni sevindirdi. Burada yeni məqalələr və mərhum professor Şamil Qurbanovun məqalələri də yer alıb. Bu arada tarixçi, professor Solmaz Rüstəmova-Tohidinin də əməyini qeyd etmək istərdim. Babamın yubileyinin keçirilməsi, əlaqələrin qurulmasında onun bizə böyük köməyi oldu. Mən neçə vaxt idi yazırdım, müraciət edirdim. Bir səssizlik var idi. Sanki qapılar birdən açıldı...

*– Nemanzadə elə bir irs yadigar qoyub ki, təkcə əlamətdar yubileylərində deyil, hər zaman xatırlanmalıdır...*

– Çox şadam ki, babamın irsinə maraq göstərən, araşdıranlar var. Uzaqda yaşasam da, onların münasibəti məni təsirləndirir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsinin elmi işçisi Pərvanə Teyyubovanın “Ömər Faiq Nemanzadə arxivinin təsviri” kitabı çapdan çıxıb. Kitabda ilk dəfə olaraq babamın institutun fondunda mühafizə olunan şəxsi arxiv materialları təsvir edilib. Bütün bunlar Azərbaycan xalqının mirasıdır. Mən babamı bütləşdirmək fikrində deyiləm. Amma onun fikir və düşüncələrinin unudulmasını da istəmirəm. Nəslinin davamçıları olaraq bizlər Nemanzadə haqqında kitab yazmalı deyilik. Çünki biz obyektiv ola bilmərik. Çox şadam ki, babamın irsi ilə bağlı dərin araşdırmalar aparılır, kitablar yazılır. Dövlətimizə və maraq göstərən hər kəsə təşəkkür edirəm.

**Lalə Azəri**

---

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (6)

### 1972-ci il 6 noyabr

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Bakı metropoliteninin üç stansiyasının – “Əzizbəyov” (hazırda “Koroğlu”, memar – H.Məcidov), “Avrora” (hazırda “Qara Qarayev”, memarlar – H.Ələsgərov, Ə.Hüseynov, rəssamlar – C.Qasımov, R.Xələfov) və “Neftçilər” (memarlar – Ə.İsmayılov, F.Leontyev, rəssamlar – A.Ağamalov, M.Qafarov) stansiyalarının açılış mərasimində iştirak edib.

### 1972-ci il 25 noyabr

Heydər Əliyev Bakıda “Xalqlar dostluğu” parkının təməlqoyma mərasimində nitq söyləyib.

### 1972-ci il 11 dekabr

Heydər Əliyev Bakı şəhərində V.İ.Lenin adına Sarayın (hazırda Heydər Əliyev Sarayı) açılış mərasimində iştirak edib.

### 1973-cü il 9 may

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Bakı şəhərində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin (heykəltəraş – Fuad Əbdürrəhmanov) açılışı mərasimində nitq söyləyib, Azərbaycan xalqının İkinci dünya müharibəsində faşizm üzərində qələbəyə verdiyi töhfələrdən söz açıb.

*“Azərbaycanın oğul və qızları düşmənə qarşı igidliklə vuruşurdular. Onların bir çoxunun adları ölkənin hərb salnaməsinə qızıl hərflərlə yazıldı. Respublikamızın 114 nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 166 mindən çox nümayəndəsi döyüş ordenləri və medalları ilə təltif edildi. Məşhur sərkərdə general Həzi Aslanovun adı, Aleksandr Matrosovun igidliyini təkrar etmiş qvardiya serjantı Gəray Əsədovun, döyüşdə öz komandirini köksü ilə qorumuş matros Qafur Məmmədovun, snayper İsrafil Məmmədovun və bir çox başqalarının adları bütün ölkəyə bəllidir.*

*Azərbaycan xalqının igid oğlu, adı dillər əzbəri olan partizan-kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Bakıda ucaldılmış abidəsi Vətənimizi qorumaq üçün canından keçmiş qəhrəmanlara ümumxalq hörmət və məhəbbətinin parlaq ifadəsidir...*

*Azərbaycanın qəhrəman oğlunun xatirəsini sovet adamları ilə bərabər Yuqoslaviya və İtaliya xalqlarının yad etmələri bizi sevindirir. Qəhrəmanın məzarı doğma torpaqdan çox-çox uzaqlardadır. Lakin partizanın döyüş yoldaşları hər il, Mehdinin həlak olmasının ildönümü günündə onun məzarı üstünə çiçək dəstələri qoyurlar...”.*

***

Respublikada mədəniyyət sahəsində nailiyyətlərin təşviqi, eyni zamanda nöqsanların aradan qaldırılması üçün müvafiq qərarlar qəbul olunurdu.

### 1972-ci il 28 aprel

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə müvafiq sahələr üzrə təqdimatlar nəzərdən keçirilərək Azərbaycan SSR Dövlət mükafatlarının (iki ildən bir verilirdi; mədəniyyət sahəsi – ədəbiyyat, incəsənət və arxitektura – 3 mükafat nəzərdə tutulmuşdu) növbəti laureatları elan edilib.

M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında “Mahnı dağlarda qaldı” tamaşasına görə – yazıçı İlyas Əfəndiyev, quruluşçu rejissor Əliheydər Ələkbərov, rəssam Nüsrət Fətullayev, artistlər İsmayıl Dağıstanlı, Leyla Bədirbəyli, Həsən Turabov, Amaliya Pənahova.

S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında “Komandorun addımları” tamaşası (V.Korostılyovun rus şairi Puşkinin həyatından bəhs edən pyesi) üçün – quruluşçu rejissor Gülcahan Güləhmədova-Martınova, artistlər Konstantin Adamov, Anatoli Falkoviç, Anna Tumarkina.

“Azərbaycan mənzərələri” silsiləsinə görə – Xalq rəssam Səttar Bəhlulzadə.

### 1972-ci il 29 aprel

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ-nin (respublika həmkarlar təşkilatı) qərarı ilə mədəni-maarif idarələrinin 1971-ci ildəki işinə ictimai baxışın yekunlarına görə keçici Qırmızı Bayraq və 2000 manat məbləğində birinci pul mükafatı Lənkəran rayonuna, 1500 manat məbləğində ikinci pul mükafatı Cəbrayıl rayonuna, 1000 manat məbləğində üçüncü pul mükafatı Qusar rayonuna verilib.

Qərarda mədəni-maarif idarələrinin fəaliyyətinə rəhbərlik sahəsində Bakı, Kirovabad (Gəncə), Sumqayıt, Şəki şəhərləri, Naxçıvan, Stepanakert (Xankəndi), Zaqatala, Ağcabədi, Masallı, Tovuz, Göyçay, Qutqaşen (Qəbələ), İsmayıllı rayonları mədəniyyət idarələrinin müsbət işi, Ağsu, Astara, Yevlax, Puşkin (Biləsuvar), Saatlı, Qubadlı, Qazax və Cəlilabad rayonlarının mədəni-maarif işi məsələləri ilə zəif məşğul olduqları qeyd edilib. Mədəniyyət Nazirliyinə, yerlərdəki partiya-sovet orqanlarına mədəni-maarif idarələrinin işinə diqqəti gücləndirmək tapşırılıb.

### 1972-ci il 18 may

Respublika xalq maarifi və mədəniyyət işçilərinin bir qrupu ümumittifaq pioner təşkilatının 50 illiyi ilə əlaqədar və respublika pioner təşkilatının işində fəal iştirak etdiklərinə görə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif ediliblər.

Həmçinin ümumittifaq pioner təşkilatının 50 illiyi ilə əlaqədar olaraq mədəni-maarif işçilərinə fəxri adlar (Əməkdar müəllim, Əməkdar mədəniyyət işçisi, Əməkdar mədəniyyət xadimi (bəstəkar Oqtay Zülfüqarov), Əməkdar kitabxana işçisi) verilib.

### 1972-ci il 26 dekabr

Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq SSRİ Xalq artisti, bəstəkar və dirijor Niyazi (Niyazi Zülfüqar oğlu Tağızadə) Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# 115 yaşlı "Leyli və Məcnun"

## Milli operamızın tarixinə qısa nəzər

Dahi bəstəkar Üzeyir Hacıbəylinin zəngin yaradıcılıq diapazonu çağdaş musiqi həyatımızın bir hissəsidir. Bir əsrdən çoxdur Üzeyir Hacıbəylinin milli ruhumuzdan yoğrulmuş bənzərsiz musiqisi, müxtəlif janrlarda əsərləri Azərbaycan mədəniyyət xəzinəsinin qızıl səhifələrini təşkil edir. Uzun illər boyu xalqımız Üzeyir Hacıbəylinin musiqisi ilə qidalanmış, maariflənmiş, sənət zövqü inkişaf etmişdir. Onun mədəniyyət tariximizə və musiqi sənətimizə ən böyük töhfəsi isə milli operanı yaratmasıdır. Üzeyir bəyin "Leyli və Məcnun" operası ümumilikdə müsəlman Şərqində opera tarixinin başlanğıcıdır.





Əsər dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyniadlı poeması əsasında yazılmışdır. "Leyli və Məcnun" operası 25 yanvar (köhnə təqvimlə 12 yanvar – red.).

1908-ci ildə Tağıyev teatrında – "Nicat" xeyriyyə-maarif cəmiyyətinin təşkilati dəstəyi ilə səhnələşdirilmişdir. Operanın rejissoru Hüseyn Ərəblinski olmuşdur. Premyera günü H.Sarabski (Məcnun), Ə.Fərəcov (Leyli), C.Dağıstani (İbn Salam) və b. aktyorlar öz çıxışları ilə səhnəni fəth etmişdilər.

Şübhəsiz, operanın səhnələşdirilməsi Üzeyir Hacıbəyli və rejissor, aktyor heyəti üçün olduqca mürəkkəb bir yol olmuşdur. Ən çətin məsələ isə səhnədə Leyli roluna ifaçı tapmaq, müsəlman cəmiyyətini buna hazırlamaq idi. Eyni zamanda da digər millətlərdən qadın ifaçı dəvət etmək də mümkün deyildi. Çünki Leyli obrazını yalnız qəzəlləri və muğamları bilən, milli səs koloritlərinə malik azərbaycanlı xanəndə oxuya bilərdi. Hər şeyə rəğmən Tanrı Üzeyir Hacıbəylini tək qoymayaraq onun qarşısına gözəl səsə malik çayçı Əbdürrəhman Fərəcovu çıxardır.

Bir gün Üzeyir bəy çayxanada caван bir çayçının yanğılı oxumasının eşidərək məhz onu Leyli obrazının ifaçısı kimi dəvət edir. Uzun sürən danışıqlardan sonra o, razılıq verərək Leyli obrazını canlandırır. Tamaşa çox uğurlu keçir və böyük tamaşaçı rəğbəti qazanır. Lakin kişinin qadın rolunu oynamasını qəzəblə qəbul edən qoçular Ə.Fərəcovu izləməyə başlayırlar. Xoşbəxtlikdən Üzeyir Hacıbəyli və onun yoldaşları Ə.Fərəcovu qorumağı bacarır.

Operanın növbəti tamaşalarında Leyli rolunu Əhməd Ağdamski ifa etməyə başlayır. Zamanla müsəlman cəmiyyəti opera sənətinin mahiyyətini dərk edir. 1920-ci illərdən sonra nəhayət, Sona Hacıyeva, Süreyya Qacar kimi qadın ifaçılar Leyli obrazı ilə opera sənətinə gəlirlər və məhz onlar tarixdə qadın aktrisalar üçün yeni səhifələr açırlar. Bununla da, Üzeyir Hacıbəyli nəinki muğam operasının əsasını, həm də opera sənətinin böyük bir tarixi yolunun əsasını qoyur.

Operaya tamaşa etdikdə insan sanki çağdaş zamandan qoparaq xəyali şəkildə orta əsrlərə – "Leyli və Məcnun"nun dövrünə qayıdır. Operada bütün musiqi nömrələri təsirli və hikmətamizdir. Lakin Üzeyir Hacıbəylinin operada baş qəhrəmanların obrazlılığını, ifadəliliyini qabartmaq üçün yazdığı bəzi musiqi nömrələri xüsusilə təsiredici və diqqətəlayiqdir. Qısa bir fraqmentə nəzər salaraq deyə bilərik ki, bir dinləyici kimi operada Leylinin ölüm ayağında ikən İbn Salama "Ey mənə qəmxar olan" sözləri ilə başlayan ariyası bu gün də ürəkləri fəth etməyi bacarır. Əgər Üzeyir Hacıbəyli uşaq ikən "Məcnun Leylinin məzarı üstə" şəbih səhnəsinə baxaraq təsirlənmişdirsə, operada o, bu təsirli hisslər, qəlb dağlayan ayrılığın ağrı-acısını nəinki Məcnunun, həm də İbn Salamın timsalında yaratmışdır. Opera olduqca güclü sevgi ruhunda yazıldığı üçün burada əsl məhəbbət, sevgidə vəfa, sadiqlik birbaşa tamaşaçıya ötürülür.

"Leyli və Məcnun" operasının səhnələşdirilməsindən 115 il ötsə də, o bu gün də ali hisslərin təcəssümünün ən gözəl nümunəsidir. Çünki saf məhəbbət – ülvi hisslərin təzahürü kimi daima əsrlərin hakimidir. Buna görə də qürurla deyə bilərik: yaşasın Üzeyir Hacıbəylinin ölməz sevgi əfsanəsi". 115 yaşlı "Leyli və Məcnun", sənət şöhrətin əbədi olsun!...

**Selcan Heydərova**
**Üzeyir Hacıbəylinin Ev-Muzeyinin elmi işçisi**

# Paytaxtımızın hüsnünə yeni çalarlar bəxş edən memar

**Zivər bəy Əhmədbəyov – 150**




Bu il Azərbaycan memarlığının inkişafında silinməz iz qoymuş Zivər bəy Əhmədbəyovun anadan olmasının 150 illiyidir. Yaratdığı bənzərsiz memarlıq nümunələri ilə paytaxtımızın hüsnünə yeni çalarlar bəxş edən sənətkar əbədi xatırlanacaq zəngin bir mədəni miras qoyub.

Zivər bəy Gəray bəy oğlu Əhmədbəyov 1873-cü ildə Şamaxı şəhərində anadan olub. Geniş dünyagörüşlü, müasir fikirli Gəray bəy Şamaxıda quberniya idarəsində kiçik məmur vəzifəsində çalışıb. Övladının təlim-tərbiyəsinə ciddi nəzarət edib. Zivərin məktəb yaşı çatanda əvvəl molla məktəbinə qoyur. Bir il sonra Bakıya gimnaziyada oxumağa göndərir. Zivər burada istedadı və çalışqanlığı ilə müəllimlərinin diqqətini çəkir.

Zivər 1893-cü ildə "əlaçı tələbə" statusu ilə Sankt-Peterburq Mülki Mühəndislər İnstitutuna göndəriş alır. Bu, o dövrün imkanlı ailələrindən uşaqların oxuduğu təhsil ocağı idi. O, burada da fəal, bacarıqlı tələbə kimi ad çıxarır.




Sankt-Peterburqda fəaliyyət göstərən Rusiya Memarlıq və Zərif Sənətlər İttifaqına üzv seçilir. Çox keçmir Zivər bəy Əhmədbəyovun xoş soraqı Azərbaycana gəlib çatır. Hələ tələbə ikən o, Sankt-Peterburqda Həsən bəy Zərdabi və İsmayıl bəy Qasprinski ilə görüşür. Bu görüş onun həyatında dərin iz buraxır. Həsən bəy onun dərin zəkalı, açıqfikirli bir gənc olduğunu vurğulayır. İşinə böyük dəyər verir, fəaliyyətini Bakıda davam etdirməyi məsləhət görür.

Bu barədə onun Həsən bəyə yazdığı bir məktubda oxuyuruq: "Sizinlə olan görüşüm hələ də xatirimdədir. Mənə verməş olduğunuz töhfəni əsla unutmayacağam. İnanıram ki, ən qısa zamanda görüşəcəyik".

Zivər bəy ali təhsilini başa vurduqdan sonra təyinatla Bakıya gəlir. Qubernatorun qəbulunda olur. Şəhərdə yenicə başlanılan abadlıq işlərinə nəzarətçi təyin edilir. Həmin vaxt Bakı sənaye şəhəri kimi inkişaf yolunda idi. Zivər bəyin işlərində Qərbi Avropa üslubuna meyilin sezilməsi diqqət çəkir. Bu, o zamankı memarlıq sənətində innovasiya kimi qəbul olunurdu. Tikilən binaların xüsusi naxışları və ornamentləri qubernatoru belə təəccübləndirir. Beləliklə, o, az vaxt ərzində Bakı qubernatorunun və elitar təbəqənin şəxsi malikanələrinin memarı kimi tanınır.

Onun layihəsi ilə tikilən bir sıra yaşayış binaları bu gün də göz oxşayır. Nadir memarlıq abidəsi kimi tanınan Əjdər bəy məscidi belə tikililərdən biridir.

Dövrünün tanınmış xeyriyyəçilərindən sayılan Əjdər bəy Aşurbəyov Bakıda daha bir ibadət məkanı tikmək fikrinə düşür. Xeyli vaxt məsədəuyğun yer axtarılır. Nəhayət, o zaman Qanlı təpə adlanan ərazini bəyənir və məscidin orada inşa edilməsini istəyir. Tanınmış memar, Təzəpir məscidi və digər nadir memarlıq abidələrində iz qoyan Z.Əhmədbəyova yeni məscidin layihəsini sifariş verir. İstedadlı memar bu sifarişə də yaradıcı yanaşır. Məkkədəki müqəddəs Kəbə evinin, Kərbəla məscidinin elementlərini özündə əks etdirən bir layihə hazırlayır. Əjdər bəy zövqlü insan olduğundan bu maraqlı layihəni bəyənir və tikintiyə başlamaq barədə tapşırıq verir. "Kaspi" qəzetində dərc edilən bir məlumata görə, məscidin təməli 1912-ci ilin martında qoyulur. Şərq memarlıq incisinin yeni bir nümunəsi olan Əjdər bəy məscidi 1913-cü ilin dekabrında möminlərin ixtiyarına verilir.

Z.Əhmədbəyov işgüzarlığı və bacarığı sayəsində vəzifə pillələrində də irəliləyir. 1917-ci ilə qədər Bakı Quberniya İdarəsində, sonra isə Bakı şəhər idarəsində memar işləyir. O, eyni zamanda ictimai fəaliyyətlə də məşğul olur. Onun təşəbbüsü sayəsində 1917-ci ildə "İslam mədəniyyət abidələrini qoruyan cəmiyyət" yaranır.

Z.Əhmədbəyov 1918-ci ildən Bakı şəhərinin baş memarı vəzifəsində çalışır. Həmin vəzifəni sovet hakimiyyəti illərində də, ömrünün sonuna qədər icra edib.

Araşdırmalarda bu görkəmli sənətkarın nəsil-nəcabəti və ailə həyatı haqqında çox az məlumat mövcuddur. Arxiv sənədlərində göstərilir ki, o, iyirmi altı yaşında ikən tatar əsilli Zərifə xanım adlı bir bəy qızı ilə ailə həyatı qurur. Zərifə xanımdan bir qızı və bir oğlu olur. Oğlu Cəlil Almaniyada tibb təhsili alır. Onun sonrakı taleyi haqqında isə heç bir məlumat yoxdur. Qızı Nailə xanım qızlar gimnaziyasını bitirir. Sonra Bakı kəndlərinin birində müəllimlik edir. Qarabağ xanları nəslindən olan Cavanşir adlı bir bəylə ailə həyatı qurur.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycan memarlığında dərin iz qoyan Zivər bəy Əhmədbəyov həyatının coşqun çağında, 1925-ci ildə 52 yaşında Bakıda vəfat edib.

Mədəniyyət xəzinəmizi öz dəyərli əsərləri ilə zənginləşdirən görkəmli memarın adının əbədiləşdirilməsi üçün 2011-ci ilin mayında Bakıda "Nizami" metro stansiyasının qarşısında Prezident İlham Əliyevin iştirakı ilə Zivərbəy Əhmədbəyovun heykəlinin və onun adını daşıyan parkın açılışı olub.

**Savalan Fərəcov**

# Hər yazılan tarix olmasa da...

## Paşa Kərimov: "İnstituta yeni əlyazma nümunələri daxil olanda əvvəlcə karantində saxlanılır"



Hər il yanvarın 23-ü bir sıra ölkələrdə "Xətt günü" və ya "Əlyazısı günü" kimi qeyd olunur. Birləşmiş Ştatların "Müstəqillik Bəyannaməsi"nə (1776) imza atan dövlət xadimi Con Henkokun (1737-1793) doğum günü ilə bağlı olan günün məqsədi insanlara əlyazısının unikallığını, əl ilə yazı yazmağın vacibliyini xatırlatmaqdır.

Dövrümüzdə texnoloji yeniliklər müasir insanı öz fikirlərini əli ilə yazaraq ifadə etməkdən uzaqlaşdırıb. Amma bütün hallarda yazı qabiliyyəti baxımından tarixdir və bizim keçmiş barədə ən unikal mənbəyimizdir. Bu mənada AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Orta əsrlər Şərq yazılı abidələrinin toplanılması, sistemləşdirilməsi, mühafizəsi və nəşri üzrə vahid bir mərkəz kimi mühüm elmi tədqiqat mərkəzidir. Burada Orta əsr elmlərinin bütün sahələrini – tibb, astronomiya, riyaziyyat, mineralogiya, poetika, fəlsəfə, teologiya, hüquqşünaslıq, qrammatika, tarix, coğrafiya və s. əhatə edən nadir əlyazma kolleksiyaları saxlanılır.

Hazırda Əlyazmalar İnstitutunda 40 mindən artıq material vardır. Bunlardan 12 minə qədəri ərəb qrafikalı əlyazmalardır ki, IX-XX əsrlərdə yazılıb və ya üzü köçürülüb.

İnstitutun icraçı direktoru filologiya elmləri doktoru Paşa Kərimovla elmi mərkəz barədə söhbət etdik.

*– Bu gün informasiya texnologiyaları dövründə əl yazısının əhəmiyyəti nədir?*

– Mən bu fikirdəyəm ki, rəqəmsal texnologiyalar tərəqqiyə çatdıqca əlyazısının əhəmiyyəti daha da artacaq. Doğrudur, bu gün bunu bir çoxları başa düşmürlər. Çoxumuz əl ilə yazmağı yadırğamışıq. Xarici ölkələrdə bunu daha çox görmüşəm. Qələmi düzgün tutmağı, fikrini əl ilə yazmağı vərdişdən çıxaranlar çoxdur. Yazıdan, qələmdən istifadə etmədən ünsiyyəti texnoloji vasitələrə keçirməyin "məhsuludur" bu. Bunun gələcək üçün fəsadları da olacaq. Necə ki, indi kitabın önəmini anlamırlar, eləcə də yazı vərdişlərinin fiziki və mənəvi əhəmiyyətini də sonra dərk edəcəklər.

*– İnstitutda qorunan əlyazmalar və onların tarixi haqqında məlumat verərdiniz.*

– Əlyazmalar İnstitutunda saxlanılan ən qədim əlyazma IX əsrə aid edilən dəri üzərində yazılmış Quranın "Ən-Nisa" ("Qadınlar") surəsinin bir hissəsidir. Üzərində qeyd olan ən qədim əlyazmalardan biri X əsrin sonunda tanınmış leksikoqraf İsmail əl-Cövhəri tərəfindən tərtib edilmiş klassik ərəb dilinin izahlı ensiklopedik lüğəti hesab edilən "Əs-sihah" əsərinin əlyazmasıdır ki, 1117-ci ildə avtoqraf nüsxəsindən üzü köçürülüb. Əbu Əli ibn Sinanın "Qanun fi-t-tibb" ("Tibbi qanun") əsəri (II cild) ərəb dilində yazılmış, tibbə və farmakologiyaya aid məşhur risalədir. 1143-cü ildə, müəllifin ölümündən 104 il sonra Bağdadda nəsx xətti ilə köçürülüb. Dünyada qədimliyinə görə ən nadir nüsxələrdən biridir və tibb elminin inkişafına ciddi təsir göstərmiş fundamental əsərlərdən hesab edilir. İbn Sinanın bu əsərinin keçən əsrin 80-ci illərində rus və özbək dillərində Daşkənddə nəşri zamanı Özbəkistan alimləri inkişaf etmiş elmi-tənqidi mətnini tərtib etmək üçün Bakı əlyazmasından əsas nüsxə kimi istifadə ediblər.

İnstitutdakı əlyazmalar, əsasən, İslam dünyasına, Azərbaycana aid ərəb, fars və türk dillərindəki yazılı nümunələrdir. Bunların ərəbcə və farsca olmaları o demək deyil ki, bizim deyil. Azərbaycan alimlərinin, şairlərinin, ən böyük nailiyyəti yüksək savadı ilə yanaşı, iki və üç dil bilmələri idi.

*– Fərqli dillərdəki əlyazmaların Azərbaycana mənsubluğunu müəyyən edən əsas mənbə, sözsüz ki, müəlliflərdir. Başqa hansı nüanslar var?*

– Bəli, əlyazmaların müəllifləri ilkin mənbədir. Amma bəzən müəllifin adı itdiyindən, yaxud cildlənməsində, xəttat tərəfindən köçürülməsi prosesində müəllif qeyd edilməsə belə, üslub və ifadə formasından da aid olduğu şəxsi təyin etmək olur. Bu barədə, deməк olar ki, heç yanılmamışıq.

*– Əlyazmanın dövrü necə müəyyən olunur?*

– Bu, ekspertiza ilə müəyyən edilir. Amma burada bir məsələ də var. Əgər üzərində dəqiq tarix və ya ona işarə verən bir təsvir yoxdursa, bu, qeyri-dəqiq məlumat hesab olunur. Ola bilsin, çox qədimdir, amma qeydiyyat aparılmayıb, yaxud da o qeyd olan hissəsi cırılıb. Bu o demək deyil ki, biz onun dövrlüyünü müəyyən edə bilmirik...

*– Fonddakı türkcə ən qədim mənbə hansıdır?*

– Təəssüf ki, yoxdur. Orta Asiyada, Rusiyada, Monqolustanda belə yazı nümunələri var, amma bizə gəlib çıxmayıb.

*– Azərbaycan müəlliflərindən daha çox kimlərin əlyazmaları var və bunlar hansı sahələri əhatə edir?*

– Bizdə Orta Asiya müəlliflərinin əlyazmaları daha çoxdur. Məsələn, ən çox əlyazması olan (500-dən çoxdur) fars-tacik şairi Əbdürrəhman Camidir. Əlyazmaların çoxluğu onun daha çox oxunmasının göstəricisidir. Hafiz Şirazinin şeirləri, Məhəmməd Füzulinin, Əlişir Nəvainin əsərlərinin əlyazmaları da çoxdur. Bu o deməkdir ki, sözügedən müəlliflərə kütləvi maraq çox olub.

*– Bir qədər də əlyazmaların tədqiqindən danışsaq...*

– İnstitut olaraq prioritet fəaliyyət istiqamətimiz azərbaycanşünaslıqdır. Burada eləcə də qorunan abidələrin mühafizə şəraitinin daim müasirləşdirilməsi, onların müntəzəm dezinfeksiya, gigiyena və bərpası məsələlərinin həlli, əlyazmaların kataloqlaşdırılması və sistemləşdirilməsi, onların tədqiqi həyata keçirilir. Tədqiqatda ən vacib məsələ isə, sözsüz ki, bərpadır. Bizdə əlyazmaların bərpası laboratoriyası fəaliyyət göstərir, burada kimyaçılar, bioloqlar çalışır. Hazırda dünyada tətbiq olunan bərpa texnologiyaları bizdə də var. Bərpa zamanı çoxsaylı preparatlar lazım olur. Onların bəzisini Almaniyada yaşayan alim dostlarımdan xahiş edirəm, göndərirlər. Məsələn, bir məqamı deyim: əlyazmalarda adi yapışqandan istifadə etmək olmaz. Çünki onun tərkibi sonradan qurd yaradır. Qeyri-üzvi vasitələrdən, cihazlardan da paralel istifadə edilir. Əlyazmaların təmizlənməsi və cildlənməsi də ayrıca bir proses, elmdir və üzərində dayanmaq çox vaxt aparır. Orada uzun proseslər gedir. İnstitutumuza təzə əlyazma daxil olanda onları karantində saxlayırıq. Bu nümunələr birdən-birə əlyazmalara qarışsa, bunda olan xəstəliklər əvvəlki materiallara keçə bilər. Əlyazmaları vaxtaşırı təmizləyənlər, dərmanlayanlar var. Onu da deyim ki, hər texnologiyanı, yeni kəşfi də əlyazmalara tətbiq edə bilmirik. Bunun üçün də müəyyən zaman lazımdır. Həm də bilmək olmaz ki, bu texnologiyalar 20 ildən sonra əlyazmaları üçün hansı fəsadları törədə bilər... Bu məsələdə çox ehtiyatlı olmaq lazımdır. Mümkün qədər ənənəvi üsuldan istifadə edirik. Çünki onların əlyazmalara ziyan vermədiyini bilirik.

*– Əlyazmaların alınması, bağışlanılması və mübadiləsi prosesi necə olur? Yəqin ki, bunun da müvafiq qiymətləndirmə cədvəli var?*

– Sovetlər dövründə vahid sistem var idi. Böyük əlyazmaşünasımız, institutumuzun ilk direktoru Məmmədağa Sultanovun dəfələrlə əlyazmaların qiymətləndirməsi prosesində iştirak etmiş, ondan çox şey öyrənmişəm. İndi zaman dəyişib, vahid qiymət yoxdur. Satan bir qiymət qoyur, alan da başqa. Əslində, əlyazmanın qiymətləndirilməsi də mümkünsüzdür. Onlara çox qədimliyinə, nəfisliyinə, müəllifinə və s. görə olur. Əsasən, fondumuzda olmayan əlyazmaların üzərində çox dayanırıq, onları arayıb-axtarırıq. Ümumiyyətlə, əlyazmalar üzərində iş böyük zövqdür. Həm də ağır işdir. Ömrümüz, sağlamlığımız, gözümüzün nuru gedir. Bu gün də olmasa, yeqin sonra əməyimizin dəyərini bilərlər...

*– Gənc tədqiqatçıların bu sahəyə marağı necədir?*

– Maraq göstərənlər var. Amma anlayırlar ki, uzun, gərgin əmək istəyən işdir. Ona görə də gənclər bu sahəyə az meyil edirlər. İçlərində bu işə sevgi ilə bağlananlar da çoxdur və bu da bizi sevindirir. Baxın, 45 ildən çoxdur bu sahədə çalışıram, adam qopa bilmir. Gənclərə, yeni tədqiqatçılara da belə dərin sevgi ilə bağlılığı arzu edirəm. Çünki bu elm sahəsi və bu fondlarda qorunanlar xalqımızın böyük maddi-mənəvi sərvətidir.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Filmləri ilə yaddaşımızı qorumağa çalışan sənətkar

Kino, ilk növbədə, quruluşçu rejissor təfəkkürünün məhsulu olsa da, müxtəlif mövzulu həyat hekayələrinin təsvirini kinooperatorların (təsvir rejissorlarının) nəzərlərində izləyirik. Azərbaycan kinosunda məzmunlu yaradıcılıq üslubuna görə seçilən, sevilən operatorlardan biri də Əməkdar incəsənət xadimi Zaur Məhərrəmovdur. "Azərbaycanfilm" kinostudiyasında 70-ə yaxın filmin ərsəyə gəlməsində iştirak edən operator yanvarın 28-də 85 yaşını qeyd edəcək. Yubilyara möhkəm cansağlığı arzulayırıq, bu yazıda isə sənət dostlarının söhbətlərində yaradıcılığına, şəxsiyyətinə daha yaxından nəzər salmağa çalışacağıq.



İnsan peşəsinin vurğunu olanda uğur həmişə yanında olur. Zaur Məhərrəmov da kinostudiyadakı fəaliyyəti boyunca (1956-cı ildən) yüksək peşəkarlıq nümayiş etdirib. Kinooperator kimi 10-dan artıq bədii ("Mən mahnı qoşuram", "Gözlə məni", "Xatirələr sahili", "Qızıl qaz" və s.), 50-dən çox sənədli ("Qobustan", "Naxışların yaddaşı", "Daşlar danışanda" və s.) film çəkib. Həmçinin müxtəlif mövzulu sənədli filmlərin rejissor-operatoru ("Daş yaddaş", "Azərbaycana səyahət" və s.), ssenari müəllifi ("Soltan quşunun sorağında" (Toğrul Cuvarlı ilə birgə), "Əshabi-Kəhf" və s.) olub. Çəkdiyi filmləri beynəlxalq festivallarda iştirak edib.



Sənətkarın yaradıcılıq yoluna Əməkdar incəsənət xadimi, kinorejissor **Hüseyn Mehdiyevlə** ekskurs edirik: "Zaur Məhərrəmov milli kinomuzda öz dəst-xətti ilə seçilən, tamaşaçıda yüksək estetik zövqlə audiovizual mədəniyyət formalaşdıran, filmləri və yaratdığı "Yaddaş" studiyası ilə xalqımızın yaddaşını qorumağa çalışan görkəmli kino sənətçisidir. Onunla ilk tanışlığım 1969-cu ildə oldu. O vaxt mən fotomüxbir qismində "Qobustan" və "Ulduz" jurnalları ilə əməkdaşlıq edirdim. Politexnik İnstitutunu atıb, Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutuna daxil olmaq istəyirdim. "Azərbaycanfilm"də həmin instituta oxumağa göndərmək üçün seçim komissiyası fəaliyyət göstərirdi. Zaur bəy də həmin komissiyanın üzvü idi. Çəkdiyim fotolara baxıb bəyəndi və məni komissiyanın sədrinin yanına göndərdi. Amma mən seçimdən keçmədim. Sonra məlum oldu ki, artıq məndən qabaq seçim edilmişdi. Belə olan halda Zaur bəy mənə kinostudiyada işləməyi təklif etdi və imkan olan kimi zəng edəcəyini söylədi.

Bir ay keçmədi ki, mənə zəng etdi və Kinoxronika şöbəsinə işə düzəltdi. İki ildən sonra mən Moskvada instituta daxil oldum. Ümumiyyətlə, Zaur bəy təkcə mənə belə qayğıkeş münasibət göstərməmişdi. Bir balaca istedad görən kimi kömək üçün əlindən gələni əsirgəmirdi...".

Əməkdar incəsənət xadimi, kinorejissor **Nizami Abbas** da sənət dostu haqqında fikirlərini bölüşür: "Onunla ilk görüşüm 1976-cı ildə oldu. Buna qədərsə onun yaradıcılığına müəyyən qədər bələdçiliyim vardı. Operator kimi quruluş verdiyi "Uşaqlığın son gecəsi", "Ad günü" və başqa filmlərə baxmışdım. Kinostudiyada onunla ilk işim sənədli kinodan başladı və mənim yaradıcılığıma çox təsiri oldu. "Azərbaycanfilm" kinostudiyasında 7 il işlədikdən sonra ali kino təhsili almaq məqsədilə sənədlərimi Ümumittifaq Kinematoqrafiya İnstitutuna verdim, Kinooperatorluq fakültəsinə qəbul oldum. Ora hazırlıqsız getmək istəmirdim. Bu işdə də Zaur bəyin mənə çox köməyi oldu. Onu özümə müəllim kimi qəbul etmişdim.

1980-ci illərin sonlarında "Azərbaycanfilm" kinostudiyasında üç yaradıcılıq birliyi ("Salnamə", "Rakurs", "Yaddaş") yarandı. "Yaddaş" studiyasının yaranması Zaur bəyin təşəbbüsü idi. Zaur Məhərrəmov, Nəriman Əbdülrəhmanlı (redaktor), Xanlar Cəfərov (prodüser) və mən bu studiyanı yaratdıq. Sonra gənc kinematoqrafların studiyaya axını başladı. Burda azad düşüncə sahibləri çalışırdı. Azad düşüncənin olması isə Zaur bəyin aurasından yaranmışdı. Zaur bəy həmişə gənclərə dayaq olurdu.

1988-ci ildə Meydan hərəkatı başlayanda "Yaddaş" studiyasının kameraları daim fəaliyyətdə idi. Bir gün Zaur bəyə xəbər verdim ki, insanlar meydana toplaşır, mən ora gedirəm. Ancaq kamerasız getmək istəmirəm. Zaur bəy mənim ora getməyimdən bir qədər ehtiyatlanırdı. Düşünürdü ki, gedərəm mənə nəsə olar. Mən meydana getdim və gəlib vəziyyəti ona danışdım. Zaur bəy artıq kinostudiyanın rəhbəri Ramiz Fətəliyevlə söhbət aparmışdı. Beləliklə, biz 5 nəfər (Köçəri Məmmədov, Rafael Salamzadə, Bağır Rəfiyev, Zaur Məhərrəmov və mən) 18 gün Azadlıq meydanında qaldıq, sona qədər də orda olduq. Zaur bəy həmin hadisələrdə də hamımızla məsləhətləşirdi. Hərdən mübahisələrimiz olurdu. Amma bu, yaradıcılıq mübahisələri idi. Buna görə də bir-birimizdən incimirdik, normal qəbul edirdik. İndi də hərdən telefonla danışırıq, birlikdə işlədiyimiz vaxtlarda baş verən hadisələrdən söhbət açırıq...".

Hüseyn Mehdiyev: "Zaur Məhərrəmov "Yaddaş" studiyasını yaradaraq ölkəmiz üçün vacib olan, Azərbaycan tarixinin şanlı səhifələri ilə bağlı kino tədqiqatları apardı, onun nəticəsi kimi "Mirzə Kazımbəy", "Sənsiz", "Almas İldırım", "İstiqlal yollarında" və digər filmləri ərsəyə gətirdi. Bu filmlərdə o vaxtadək açıqlanmayan və yaxud təhrif olunaraq təqdim olunan informasiyalar daha dəqiq və dolğun şəkildə, yüksək estetik, emosional formada tamaşaçılara çatdırılır, onlarda vətənpərvərlik, qürur hissi oyadır. Həqiqətləri üzə çıxaran sənədlər və faktlar üzərində çəkilən bu filmlər sənədli kino tariximizin incilərdir. Ömrünü kinoya həsr edən Zaur Məhərrəmovun yaradıcılığı ümumilikdə Azərbaycan kinosunun parlaq səhifələrindən birini təşkil edir".

Nizami Abbas: "Onunla sənədli kino ilə yanaşı, bir neçə bədii filmdə də çalışmışam. "Tənha narın nağılı", "Qocalar, qocalar" filmlərində işləmişəm. Sonralar isə "Yaddaş" studiyasında müstəqil rejissor kimi onunla birgə filmlər çəkmişəm. İlk rejissor işim olan "Sərhəd" (1990) filminin tarixçəsini qısa danışım. Bir gün şair dostum İlham Behrud xəbər verdi ki, Ordubadda sərhədboyu müəyyən hadisələr baş verir.



Həmin hadisələri çəkmək istədiyi Zaur bəyə bildirdim. Digər filmlərdən qalan lentləri götürüb İlham Behrudla birlikdə Ordubada yola düşdüm. Orda sovet əsgərləri təzyiq göstərir, çəkilişlər apamağımızı istəmirdilər. Ancaq biz istəyimizə nail olduq. Buna da oradakı əhvali-ruhiyyənin təsirinin böyük köməyi oldu. Sovet əsgərləri bir növ aciz qaldılar.

Onda Zaur bəylə bir də əlaqə saxladım ki, lent çatışmazlığı yaranıb, mənə çəkiliş üçün lent lazımdır. Zaur bəy də Bakıdan təcili olaraq lentləri göndərdi və biz çəkilişləri davam etdirə bildik".

Hüseyn Mehdiyev: "Zaurun yaradıcılığı mürəkkəb və çoxşaxəlidir. Filmləri yüksək poetik obrazlılığı ilə seçilir. Azərbaycan kinosunda təsviri sənətinin inkişafında Zaurun rolu böyükdür. Onun təbiəti yaratmaqdır. Yaratmaq isə dünyaya özəl baxış tələb edir. Bu baxış da təkcə təsvirlə məhdudlaşmır. Yaratmaq – zamanı, məkanı hərəkətdə, yeni və özəl dramaturji formada görüb fiksasiya etməkdir. Bu isə rejissorun funksiyasıdır. Zaurun bütün yaradıcılığı buna sübutdur.

Azərbaycan kinosunun təsvir sənətinə poeziya ruhunu gətirən Zaurun öz aləmi var və o, bunları filmlərində təsvir rejissoru istiqamətində realizə etməyə çalışıb. Rejissorluq, ilk növbədə, tamaşaçı ilə özünəməxsus "danışıq" dilidir. 1970-ci ildə o, "Çörək" sənədli filmini çəkdi. Bu film onun istədiyi aləm idi. Zaur ekrandan tamaşaçı ilə özünəməxsus dillə danışırdı...".

Nizami Abbas: "Kinostudiyada onun otağına tez-tez bəstəkar Xəyyam Mirzəzadə, rəssam Kamil Nəcəfzadə, operator Arif Nərimanbəyov, rejissor Şamil Mahmudbəyov və digər görkəmli kino xadimləri gəlirdi. Onların sənət haqqındakı söhbətlərinə maraqla qulaq asırdım. Ümumiyyətlə, Zaur bəylə işləmək çox maraqlı idi. Onunla yaş fərqimiz olsa da, bunu hiss etmirdim. Yaradıcılıq səmimiyyət olan yerdə yaranır. Səmimilik olan yerdə isə münasibətlər də normal qurulur, iş də yaxşı alınır.

Onunla sonuncu filmim "Əzablı yollar" sənədli filmidir. Film Cümhuriyyət tariximizdən bəhs edir. Filmin çəkilişlərini 4 ay ərzində Almaniyada, Fransada, Türkiyədə apardıq. Fransada Ceyhun Hacıbəylinin məzarı üstündə birlikdə çəkdiriyimiz şəklimiz də var. Bu filmdən sonra Zaur bəy ailəsi ilə birlikdə Türkiyəyə köçdü, orada pedaqoji fəaliyyət göstərməyə başladı...".

Hüseyn Mehdiyev: "Zaur Məhərrəmov uzun illərdir ki, Türkiyənin Əskişəhər Universitetinin professoru kimi fəaliyyət göstərərək neçə-neçə sənətkar yetişdirib, həmçinin kino sahəsi üçün vacib olan kitablar nəşr etdirib. Hazırda da yeni kitablar üzərində işləyir...".

**Şəhla Əmirli**
**kinoşünas**

## Bülbülün Memorial Muzeyində xatirə tədbiri



Bülbülün Memorial Muzeyində "Milli qürur günümüz" adlı anım tədbiri təşkil olunub.

Yanvarın 19-da gerçəkləşən tədbirdə muzeyin əməkdaşları və "Aytam" Uşaqların Mədəni Maarifləndirilməsi İctimai Birliyinin üzvləri iştirak edibələr.

Bildirilib ki, 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordu birləşmələri tərəfindən Bakıda dinc, silahsız əhaliyə qarşı qırğın həyata keçirilib. Əliqanlı rejimin öz təbəəsinə qarşı törətdiyi hərbi cinayət xalqımızın azadlıq və suverenlik ideallarının qarşısını ala bilməyib. Bir il sonra Azərbaycan öz müstəqilliyini bərpa edib.

## Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi

### Kitabxanaların 20 Yanvarla bağlı tədbir və layihələri

20 Yanvarın 33-cü ildönümü kitabxanalarda müxtəlif tədbir və layihələrlə qeyd olunub.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Tariximizin şərəf və qəhrəmanlıq səhifəsi" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycanın tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olan 1990-cı ilin 20 yanvar gecəsi, xalqın azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladlarının canlarından keçərək şəhidlik zirvəsinə ucalmasından, bu tarixin qan yaddaşımızda yerindən bəhs edilib.



Gənclər Kitabxanası 20 Yanvarın ildönümü ilə bağlı silsilə materiallar – "Milli qürur günümüz" adlı Azərbaycan və rus dillərində videomaterial, Azərbaycan, rus və ingilis dillərində 40-dan çox kitabın biblioqrafik təsvirini və annotasiyasını cəmləyən "Xalqımızın qəhrəmanlıq salnaməsi" adlı biblioqrafik icmal və mətbuat materiallarından ibarət toplu da hazırlayıb.

***

Respublika Uşaq Kitabxanasının 3 saylı filialı və H.Cəbrayılov adına 99 nömrəli orta məktəbin birgə təşkilatçılığı ilə 20 Yanvarın 33-cü ildönümünə həsr olunan "Şəhidlikdən qəhrəmanlığa gedən yol" adlı tədbir keçirilib.

Tədbirdə məktəbin şagirdlərinin ifasında şeirlər səslənib və 20 Yanvar hadisələrindən bəhs edən videomaterial nümayiş olunub. Məktəbin foyesində Respublika Uşaq Kitabxanası 3 saylı filialının mövzu üzrə hazırladığı kitab sərgisi nümayiş olunub.

## Xatirə təqvimi 25–27 yanvar

### Azərbaycan

**25 yanvar 1887** – Yazıçı, ədəbiyyatşünas, pedaqoq Seyid Hüseyn (Hüseyn Mirkazım oğlu Sadıqzadə; 1887 – 6.1.1938) Bakıda doğulub. Bu gün də bədii təravətini saxlayan hekayələrin müəllifidir. Repressiya qurbanı olub.

**25 yanvar 1984** – Görkəmli teatr və kino aktyoru, Xalq artisti Məmmədrza İsa oğlu Şeyxzamanov (4.8.1915 – 1984) vəfat edib. Akademik Milli Dram Teatrında, kinoda ("Bir qalanın sirri", "Nəsimi", "Əhməd haradadır?", "Tütək səsi" və s.) yaddaqalan obrazlar yaradıb.

**25 yanvar 2021** – Prezident İlham Əliyev görkəmli elm xadimi Lütfi Zadənin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**26 yanvar 1863** – Maarifçi alim, ədəbiyyatşünas və publisist Firidun bəy Köçərli (1863-1920) Şuşada doğulub. Qori Müəllimlər Seminariyasında dərs deyib. Seminariyanın Azərbaycan bölməsinin Qazaxa köçürülməsindən sonra ona rəhbərlik edib. 1920-ci ilin mayında Gəncədə antisovet üsyanı zamanı güllələnib.

**26 yanvar 1931** – Əməkdar rəssam, tanınmış heykəltəraş Albert Zaman oğlu Mustafayev (1931 – 4.3.2022) Şəkidə doğulub. Bakıda "Bəhram Gur əjdahanı öldürür" fontan-kompozisiyasının həmmüəllifi, Nizami Kino Mərkəzinin baş fasadındakı Nizami heykəlinin, vaxtilə Şuşada, Molla Pənah Vaqifin məqbərəsində qoyulmuş Vaqifin heykəlinin müəllifidir.

**26 yanvar 1933** – Xalq artisti, bəstəkar Musa Abdulla oğlu Mirzəyev (1933 – 29.1.2016) Bakıda doğulub. Simfoniya, simfonik orkestr üçün əsərlər, kantata, vokal silsilələri, mahnıların müəllifidir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**26 yanvar 1934** – Əməkdar rəssam Elçin Muxtar oğlu Aslanov (1934-2018) Bakıda doğulub. Kitab qrafikası ilə məşğul olub, Akademik Dram Teatrında tamaşalara səhnə tərtibatı verib, "Nəsimi" bədii filminin geyim üzrə rəssamı olub.

**26 yanvar 2008** – Görkəmli xanəndə, Xalq artisti İslam Tapdıq oğlu Rzayev (11.11.1934 – 2008) vəfat edib. Muğam Teatrının yaradıcısı və 20 ilə yaxın bədii rəhbəri olub.

**26 yanvar 2010** – Prezident İlham Əliyev məşhur cazmen, pianoçu və bəstəkar Vaqif Mustafazadənin 70 illik yubileyi haqqında sərəncam imzalayıb.

**27 yanvar 1806** – Yazıçı, mütəfəkkir İsmayıl bəy Qutqaşınlı (1806-1869) keçmiş Qutqaşın mahalında (indiki Qəbələ rayonu) anadan olub. Fransız dilində yazdığı "Rəşid bəy və Səadət xanım" povesti ilk Azərbaycan nəsr əsəri sayılır. Çar Rusiyası ordusunda qulluq edib, general rütbəsinədək yüksəlib.

**27 yanvar 1906** – Görkəmli tarixçi Sara Aşurbəyli (1906 – 17.7.2001) anadan olub. Orta əsrlər Azərbaycan şəhərlərinin tarixinə dair dəyərli araşdırmalar aparıb, əsərləri ingilis, fransız dillərində çap edilib. Rəssamlar İttifaqının üzvü olub, boyakarlıq əsərlərinin müəllifidir.

**27 yanvar 1912** – Əməkdar memar Fərəc Səttar oğlu Fərəcov (1912 – 7.9.1990) anadan olub.

**27 yanvar 1932** – Əməkdar artist, tanınmış nağara ifaçısı Çingiz Həsənbala oğlu Mehdiyev (1932-1992) Bakıda anadan olub.

**27 yanvar 1939** – Əməkdar incəsənət xadimi, ustad saz ifaçısı, aşıq Ədalət Məmmədəli oğlu Nəsibov (1939 – 14.9.2017) Qazax rayonunda doğulub. "Yeddi oğul istərəm" filmində (aşıq) çəkilib.

**27 yanvar 1939** – Tanınmış aktrisa Ofeliya Rza qızı Əfqanlı (Ofeliya Aslan; 1939 – 18.5.2010) anadan olub. Musiqili Komediya Teatrında çalışıb. "Xoşbəxtlik qayğıları", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**27 yanvar 2014** – Əməkdar artist, müğənni Məhəbbət Allahverdi oğlu Kazımov (2.7.1953 – 2014) vəfat edib. "Dan ulduzu" ansamblının solisti, "Laçın" instrumental ansamblının rəhbəri olub.

**27 yanvar 2022** – Tanınmış teatrşünas, rejissor Şaiq Cabir oğlu Səfərov (18.12.1954 – 2022) vəfat edib. Müxtəlif teatrlarda çalışıb, Azərbaycanda beynəlxalq teatr tədbirlərinin təşkilində yaxından iştirak edib.

### Dünya

**25 yanvar 1759** – Şotland şairi Robert Berns (Robert Burns; 1759 – 21.7.1796) anadan olub. Şairin şərəfinə 25 yanvar Şotlandiyada milli bayram kimi qeyd olunur.

**25 yanvar 1874** – İngilis yazıçısı Vilyam Somerset Moem (William Somerset Maugham; 1874-1965) anadan olub. Əsərləri: "Ehtiraslar yükü", "Ay və quruş" (romanlar), "Teatr" (povest) və s.

**25 yanvar 1938** – Rus şairi və müəllif mahnıları ifaçısı, aktyor Vladimir Semyonoviç Vısotski (1938 – 25.7.1980) anadan olub. "Görüş yerini dəyişmək olmaz", "Tayqanın sahibi" və s. filmlərdə çəkilib.

**26 yanvar 1925** – Amerika aktyoru, rejissor Pol Nyuman (Paul Leonard Newman; 1925-2008) anadan olub.

**27 yanvar 1756** – Dahi Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Joannes Chrysostomus Wolfgang Theophilus Mozart; 1756 – 5.12.1791) Zalsburq şəhərində doğulub. 6 yaşından musiqi bəstələməyə başlayıb. Alman dilində ilk operanın ("Hərəmxanadan qaçırılma"), müxtəlif alətlərlə orkestr üçün 40-a yaxın əsərin müəllifidir.

**27 yanvar 1775** – Görkəmli alman filosofu Fridrix Vilhelm Yozef fon Şellinq (Friedrich Wilhelm Joseph von Schelling; 1775-1854) anadan olub. Əsərləri: "İncəsənət fəlsəfəsi", "Etiraf fəlsəfəsi" və s.

**27 yanvar 1826** – Rus yazıçısı Mixail Yevqrafoviç Saltıkov-Şedrin (1826-1889) anadan olub. Əsərləri: "Quberniya oçerkləri", "Bir şəhərin tarixi", "Nəcib nitqlər", "Həyatın təfərrüatı" və s.

**27 yanvar 1832** – İngilis yazıçısı, filosof Luis Keroll (Lewis Carroll – əsl adı Charles Lutwidge Dodgson; 1832-1898) anadan olub. Uşaqlar üçün məşhur əsərlərin ("Alisa Möcüzələr ölkəsində", "Alisa Əyri güzgülər ölkəsində") müəllifidir.

**Hazırladı: V.Orxan**

## Əməkdar artist Tünzalə Əliyeva vəfat edib



Azərbaycan mədəniyyətinə itki üz verib. Teatr və kino aktrisası, respublikanın Əməkdar artisti Tünzalə Əliyeva uzun sürən xəstəlikdən sonra yanvarın 22-də, ömrünün 50-ci ilində vəfat edib.

Tünzalə Məcid qızı Əliyeva 15 fevral 1973-cü ildə Gəncə şəhərində anadan olub. 1993-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram və kino aktyorluğu fakültəsini bitirib. Gəncə Dövlət Kukla Teatrında, Gəncə Dövlət Dram Teatrında çalışıb. 2003-cü ildən yaradıcı fəaliyyətini Bakıda, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının truppasında davam etdirib. Teatrın repertuarındakı bir sıra tamaşalarda yaddaqalan obrazlar (Natella – M.Haqverdiyev, "Qısqanc ürəklər"; Şahnaz – A.Rəhimov, "Pul hərisləri"; Mehriban – Ə.Nesin, "Toros canavarı", Sənəm – Ü.Hacıbəyli, "O olmasın, bu olsun" və s.) yaradıb. Həmçinin müxtəlif filmlərdə çəkilən, əyləncəli televiziya proqramlarında iştirak edən aktrisa geniş tamaşaçı rəğbəti qazanıb.

Tünzalə Əliyevanın yaradıcı fəaliyyəti dövlət tərəfindən qiymətləndirilib, 2007-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülüb.

Allah rəhmət eləsin.

№6 (1975)
25 yanvar 2023
www.medeniyyet.az

# Sofiyada beynəlxalq festivalda Azərbaycan kinosu gecəsi keçirilib

16-29 yanvar tarixlərində Bolqarıstanın paytaxtı Sofiyada 15-ci MENAR (Middle East & North Africa Region – Yaxın Şərq və Şimali Afrika Regionu) Film Festivalı keçirilir. 14 ölkədən 40-a yaxın filmin təqdim olunduğu festivalda Azərbaycan da iştirak edir.




Yanvarın 19-da festival çərçivəsində ölkəmizin Bolqarıstandakı səfirliyi tərəfindən Azərbaycan kinosu gecəsi təşkil edilib. Sofiya şəhərindəki "Kino Evi"ndə "Xarıbülbül əfsanəsi" sənədli filmi və "Olimpiya" bədii filmi nümayiş etdirilib.

Azərbaycanın Bolqarıstandakı səfiri Hüseyn Hüseynov və MENAR Film Festivalının təşkilatçı şirkətinin rəhbəri Zdravko Qriqorov giriş sözü söyləyiblər.

Azərbaycan mədəniyyəti və kino sənəti ilə bağlı izləyicilərə qısa məlumat verən səfir "Xarıbülbül əfsanəsi" sənədli filmi haqqında danışıb. Bildirib ki, Azərbaycanın Qarabağ bölgəsi və Şuşa şəhərinə xas olan xarıbülbül çiçəyi 2020-ci il Vətən müharibəsində qazandığımız Zəfərin simvoluna çevrilib. Diplomat "Olimpiya" bədii filminin də yeni dövr Azərbaycanın bədii kinosunun nümunəsi olduğunu deyib.

Sonra hər iki ekran əsəri nümayiş olunub.

Xatırladaq ki, "Xarıbülbül əfsanəsi" sənədli filmi isveçli fotoqraf və rejissor Mikael Silkeberqin 2021-ci ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfərinin nəticəsi olaraq ərsəyə gəlib. O, Şuşa, Füzuli və Ağdamda olub, ermənilərin törətdiyi vandalizmi fotoobyektivin yaddaşına köçürüb. İsveçin paytaxtı Stokholmda həmin fotoların sərgisi təşkil olunub. Bundan sonra İsveçdəki səfirliyimizin təşəbbüsü, UNESCO üzrə Azərbaycan Milli Komissiyası və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Mikael Silkeberq tərəfindən "Xarıbülbül əfsanəsi" sənədli filmi çəkilib.

"Olimpiya" bədii filmi Mədəniyyət Nazirliyinin dəstəyi ilə 2021-ci ildə "Mozalan" studiyasında ərsəyə gətirilib. Rejissor Əli-Səttar Quliyevin quruluş verdiyi film melodram janrındadır. Baş qəhrəman 1980-ci il Moskva Olimpiadasında qalib olub, indi dağ kəndində idman müəllimidir. Günün birində kəndə Kubadan onun indiyədək üzünü görmədiyi qızı – Olimpiya gəlib çıxır...

Filmin ssenari müəllifi Rüstəm Babazadə, quruluşçu operatoru Nadir Mehdiyev, quruluşçu rəssamı Arif Niftiyevdir. Rolları Xalq artistləri Qurban İsmayılov, Məbud İsmayılov, Vidadi Həsənov, Əməkdar artist Rasim Cəfərov, aktrisa Günel Məmmədova və başqaları oynayırlar.

# Ölkəmizin turizm imkanları İspaniyada nümayiş olunub

Azərbaycanın turizm imkanları 18-22 yanvar tarixlərində İspaniyanın paytaxtı Madriddə "FITUR" turizm sərgisində nümayiş etdirilib.

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə və 4 yerli tərəfdaşın iştirakı ilə milli stenddə ziyarətçilərə və beynəlxalq turizm sənayesinin təmsilçilərinə Azərbaycanın turistik məkanları, milli mətbəx nümunələri, şərabçılıq, qolf, sağlamlıq, mədəni, eləcə də dağ və qış turizmi imkanları, dağ-xizək mərkəzləri haqqında geniş məlumat verilib.

"FITUR" xüsusilə ispandilli ölkələr üzrə ən böyük turizm tədbiri hesab olunur. Bu il sayca 43-cüsü keçirilən "FITUR" sərgisinə 130 ölkə qatılıb. Azərbaycan da son on ildə bu sərgidə ənənəvi olaraq təmsil olunur.

Sərgi çərçivəsində görüşlərdə ispandilli ölkələrin turizm şirkətləri Cənub Qafqaz regionu üzrə birgə turların təşkilində maraqlı olduqlarını bildiriblər.

Azərbaycanın milli stendi BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) baş katibi Zurab Pololikaşvili tərəfindən də ziyarət olunub.




Sərgi zamanı Azərbaycanla İspaniya, Andorra və Bolqarıstanla turizm əlaqələri, o cümlədən qış turizmi sahəsində təcrübə mübadiləsi və əməkdaşlıq müzakirə edilib. DTA-nın sədri Fuad Nağıyev sözügedən ölkələrin turizm sahəsi üzrə rəhbər şəxsləri ilə görüşlər keçirib. Görüşlərdə Azərbaycanın İspaniya və Andorradakı səfiri Ramiz Həsənov da iştirak edib.

# "Apple" hər dörd məhsuldan birini Hindistanda istehsal edəcək

## Ucuz işçi qüvvəsi ilə...

ABŞ-nin "Apple" korporasiyası məhsullarının 25 faizini Hindistanda istehsal etməyi planlaşdırır.

Bu barədə Hindistanın ticarət və sənaye naziri Piyuş Qoyal məlumat verib. Onun sözlərinə görə, hazırda şirkətin bu ölkədə istehsalı ümumi məhsulunun 5-7 faizini təşkil edir.

Dekabr ayında "Apple" Hindistandan 1 milyard dollar həcmində smartfon ixrac edən ilk şirkət olub. Bu smartfonlar onun yerli bölmələri tərəfindən buraxılıb. Beləliklə, "Apple" Hindistandan ən böyük məhsul ixracatçısına çevrilərək bu göstəriciyə görə "Samsung" kompaniyasını qabaqlayıb.

Ötən il "Apple" korporasiyasının mal dövriyyəsi 400 milyard, təmiz gəliri isə 100 milyard dollara yaxın olub. Şirkətin ümumi bazar dəyəri (kapitalizasiya) isə 3 trilyon dollar həcmində qiymətləndirilir.

# "Avatar: Suyun yolu" – gəliri də su kimi axır

Dünya kinosunda ən bahalı və ən çox gəlir gətirən filmlərin müəllifi kimi ad çıxaran Ceyms Kameronun "Avatar: Suyun yolu" ("Avatar 2") filmi dünya prokatında 2 milyard dollarlıq həddini keçib.




Kanadalı kinorejissorun dünya premyerası 2022-ci il dekabrın 6-da olan filmi ayyarım ərzində ABŞ-da 600 milyon dollar, digər ölkələrdə isə toplam 1,4 milyard dollar gəlir gətirib. Filmin büdcəsi isə 350 milyon dollardan çoxdur.

"Avatar: Suyun yolu" Kameronun 2 milyard dollarlıq həddi keçən üçüncü filmidir. Bu həddi dünya kinosu tarixində ilk dəfə rejissorun 1997-ci ildə çəkdiyi "Titanik" filmi keçib. Onu da qeyd edək ki, "Titanik" 200 milyon büdcəsi ilə dövrünün ən bahalı filmi olub. O, dünya prokatında birinciliyi 12 il əlində saxladıqdan (təxminən 2,2 milyard gəlir) sonra yerini 2009-cu ildə Kameronun yeni filminə – "Avatar"a verib. 245 milyona dollara yaxın büdcəsi olmuş "Avatar" isə indiyədək prokatdan 2,9 milyard dollar gəlir gətirib. Bu göstərici hazırda dünya kinosu tarixində ən yüksək göstəricidir.

"Avatar 2"nin hələ 2013-cü ildə ekranlara çıxacağı elan edilsə də, çəkiliş tarixi uzun müddət təxirə salınıb. Filmin premyerası 2020-ci ilə gözlənilsə də, pandemiya üzündən iki il ertələnmişdi.

Beləliklə, Ceyms Kameronun toplam 700 milyon dollara yaxın büdcəsi olan üç filminin prokat gəliri bunun 10 qatı qədər – 7 milyard dollardan çoxdur. Onu da qeyd edək ki, indiyədək dünya kinosu tarixində 2 milyard dollar gəlir həddini cəmi 6 film keçib.

**V.Kamal**




Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 235 il əvvəl...

**26 yanvar 1788-ci ildə** Avstraliya Böyük Britaniya imperiyasının nəzarətinə keçib. İngilis admiral Artur Filippin başçılığı ilə ilk kolonistlər dəstəsi "yaşıl materikə" gəlib. Britaniyanın daxili işlər naziri Lord Sidneyin adı ilə yeni şəhərin əsası qoyulub. Avstraliya bu gün də formal olaraq Britaniya Krallığına tabedir və Britaniya Birliyinin üzvüdür. 26 yanvar Avstraliyada milli bayram – "Avstraliya günü" kimi qeyd edilir.

### 192 il əvvəl...

**25 yanvar 1831-ci ildə** Polşa torpaqlarında Rusiya imperiyasından ayrılmaq və müstəqillik uğrunda üsyan başlanıb. Polşa XVIII əsrdə Rusiya ilə Prussiya arasında bölüşdürülmüşdü. Çar I Nikolayın Polşaya göndərdiyi cəza dəstələri üsyanı qan içində boğub, müstəqillik ideyalarını yayan Varşava Universiteti bağlanıb.

### 119 il əvvəl...

**27 yanvar 1904-cü ildə** Rusiya-Yaponiya müharibəsi başlanıb. İki il sürən müharibədə Rusiya məğlub olub və Uzaq Şərqdəki strateji Port-Artur limanını itirib.

### 106 il əvvəl...



**25 yanvar 1917-ci ildə** Amerika Birləşmiş Ştatları Danimarka Krallığının müstəmləkəsi olan Vest-İndia adalarını (indiki Virciniya adaları) o vaxtın pulu ilə 25 milyon dollara satın alıb. ABŞ-nin Karib dənizində sahib olduğu adaların ümumi sahəsi 346 kvadrat kilometr idi.

### 100 il əvvəl...

**27 yanvar 1923-cü ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Bakı Teatr Texnikumunun – Şərqdə ilk teatr məktəbinin təşkili barədə qərar qəbul edib.

### 74 il əvvəl...

**25 yanvar 1949-cu ildə** sosialist inkişaf yolu seçmiş ölkələrin iqtisadi birliyi – Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yaradılıb. SSRİ, Bolqarıstan, Çexoslovakiya, Polşa, Rumıniya və Macarıstanın yer aldığı təşkilat ABŞ-nin Qərbi Avropanı təsir altına almasına – "Marşall planı"na cavab addımı idi. Sonrakı illərdə Albaniya, ADR və Monqolustan da təşkilata qoşuldu. 1990-cı ildə sosialist düşərgəsi ilə bərabər, QİYŞ də süqut etdi.

### 73 il əvvəl...

**26 yanvar 1950-ci ildə** Britaniyanın müstəmləkəsi Hindistan müstəqilliyini elan edib. Hindistan iki əsrə yaxın ingilis müstəmləkəsi olub. Müstəqillikdən 15 il sonra hind dili ölkədə rəsmi dövlət dili elan olundu. Bununla belə, Hindistanda ingilis dili də ikinci dövlət dili statusundadır.

### 35 il əvvəl...



**25 yanvar 1988-ci ildə** Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi şəkildə deportasiyası başlanıb. Azərbaycanlı qaçqınların ilk dəstəsi respublikamıza pənah gətirib. 1988-1989-cu illərdə ümumilikdə 230 minə yaxın azərbaycanlı indiki Ermənistan ərazisi olan tarixi ata-baba yurdlarından zorla qovuldu.

### 31 il əvvəl...

**24 yanvar 1992-ci ildə** Azərbaycan Parlamenti (Ali Sovetin Milli Şurası) "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün Avropa Şurasına müraciət edib. Avropa Şurası Parlament Assambleyası 1996-cı ildə Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusu verdi.

### 22 il əvvəl...

**25 yanvar 2001-ci ildə** Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv olub. Strasburqda, Avropa Şurasının mənzil-qərargahının qarşısındakı flaqştoka Azərbaycanın Dövlət bayrağı qaldırılıb. Mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev iştirak edib.

**Hazırladı: V.Orxan**

# TÜRKSOY-un Almas İldırımın 115 illiyi münasibətilə nəşr etdirdiyi kitab təqdim olunub

Yanvarın 19-da Türkiyənin Malatya şəhərindəki İnönü Universiteti və Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un birgə əməkdaşlığı ilə "Qaladan Qalaya igid bir səs: Almas İldırım" adlı tədbir keçirilib.



Azərbaycan mühacirət ədəbiyyatının önəmli isimlərindən olan Almas İldırımın (1907-1952) anadan olmasının 115-ci ildönümünə həsr edilən tədbirdə "Almas İldırımdan seçmə şeirlər" kitabı da təqdim olunub.

TÜRKSOY-un baş katibi Sultan Raev çıxışında A.İldırımın Azərbaycan və Türkiyə ədəbiyyatında, eləcə də Türk dünyası şairləri sırasında özünəməxsus yerə sahib olduğunu vurğulayıb: "TÜRKSOY olaraq Almas İldırımın anadan olmasının 115-ci ildönümünə həsr etdiyimiz kitabı sizlərə təqdim etməkdən məmnunuq".

S.Raev kitabdakı şeirləri Türkiyə türkcəsinə uyğunlaşdıran şair Kənan Çarboğaya və nəşrin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edib.

İnönü Universitetinin rektoru Əhməd Qızılay isə həyatının bir hissəsini Malatyada keçirən şairin vəfatından sonra xatirəsinin yad edilməsində vasitəçi olmaqdan məmnunluğunu bildirib.

Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı nümayəndəsi və kitabın tərtibçisi Elçin Qafarlı deyib ki, xalqının istiqlalı, Türk dünyasının birliyi uğrunda qələmi ilə mübarizə apararkən sovet rejimi tərəfindən sürgün edilən A.İldırım Vətən həsrəti ilə yaşayıb-yaradıb, ikinci vətəni Türkiyədə, Malatyada dünyasını dəyişib.

Fırat Universiteti (Elazığ) Türk dili və ədəbiyyatı kafedrasının müəllimi Əsra Şimşək və əsəri türkcəyə uyğunlaşdıran Sivas Cümhuriyyət Universiteti Türk dünyası araşdırmaları mərkəzinin müəllimi Kənan Çarboğa çıxışlarında şairin yaradıcılığından bəhs ediblər.

Tədbirdə "TRT Avaz"ın A.İldırım haqqında hazırladığı qısametrajlı film nümayiş olunub.

Qeyd edək ki, yanvarın 19-da TÜRKSOY ilə Malatya İnönü Universiteti arasında əməkdaşlıq protokolu da imzalanıb. A.İldırıma həsr edilən anım mərasimi bu əməkdaşlığın ilk bəhrəsidir.

**Mehparə Sultanova**
**Ankara**

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfdaş çevrəsini genişləndirir

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Ankaraya səfəri çərçivəsində bir sıra görüşlər keçirib.



Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları Qurumunun (YTB) başqanı Abdullah Ərənlə görüşdə türk xalqlarının zəngin mədəni irsinin, eləcə də müxtəlif ölkələrin ərazisində məskunlaşmış azsaylı türk etnik əsilli xalqların mədəni mirasının yaşadılması və təbliğində fondun fəaliyyətindən söz açılıb, bu istiqamətdə iki təşkilat arasında mümkün əməkdaşlığın yolları barədə fikir mübadiləsi aparılıb. YTB başqanı bu səpkidə əməkdaşlığa hazır olduqlarını bildirib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə Türk Tarix Qurumunun birgə layihələri də Türk xalqlarının qədim mədəniyyətinin mühafizəsinə və gələcək nəsillərə ötürülməsinə töhfə verəcək. Bu barədə Günay Əfəndiyevanın Ankarada Türk Tarix Qurumunun rəhbəri Birol Çətin ilə görüşündə söhbət aparılıb. Türk Tarix Qurumunun arxeoloji çalışmalara verdiyi dəstək, eləcə də Fondun müxtəlif xarici ölkələrdə məskunlaşmış azsaylı türk etnik köklü xalqlarla bağlı layihələri yüksək qiymətləndirilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5058. **Sifariş:** 124
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.
**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641